www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 fevral 2015-ci il Çərşənbə axşamı № 41 (6069) Qiymәti 40 qәpik

**Xəbər**

## Bakıda daha bir avtobus qəzası: ata öldü, oğlu yaralandı

yazısı səh.14-də

**Gündəm**

### Manat "qara zolaqdan" nə vaxt çıxacaq?



Milli valyutanın məzənnəsi ilə bağlı təkliflər verildi; Qubad İbadoğlu: "Bu ərəfədə istehlakçılar və iş adamları ehtiyatlı olmalıdırlar"

yazısı səh.6-da

### Azər Əsgərovdan AXCP sədrinə yeni ittihamlar

yazısı səh.4-də

### Böyük Britaniya səfiri "Xəzər Adaları"nda

yazısı səh.3-də

*Siyavuş Novruzov:*

### "Kimsə əhalidən gəlir götürməyə çalışacaqsa, cəzalandırılmalıdır"

yazısı səh.3-də

*Razi Nurullayev:*

### "Əli Kərimli Azərbaycanda klassik siyasəti məhv elədi"

yazısı səh. 8 və 9-da

### Qarabağın Azərbaycanlı İcmasından həmsədrlərə etiraz

yazısı səh.13-də

### Arif Yunusun həbs müddəti daha 5 ay artırılıb

yazısı səh.2-də

### "Süleyman Şah" türbəsinin köçürülməsi Türkiyədə etirazla qarşılandı

yazısı səh.12-də

### Manatın ucuzlaşmasından müxalifət nə qədər itirdi?

yazısı səh.11-də

### Rusiya-NATO savaşı mümkün deyil, əks halda...

yazısı səh.12-də

### Azərbaycanlı iş adamı Donetskdə itkin düşdü

yazısı səh.14-də

## Broyler toyuqlardan bəhs edən videonun gizlinləri üzə çıxdı

# OLİQARXLARIN ƏT SAVAŞI - ÖZƏL XƏBƏR

Son vaxtlar sosial şəbəkələrdə yayılan, sonradan peşəkar mediaya ayaq açan "zərərli toyuqlar videosu" barədə maraqlı məlumatlar; bunun arxasında qırmızı ət bazarına nəzarət edən monopolistlərin dayandığı barədə iddialar var



yazısı səh.11-də

## Aslan Aslanovun həbsi üçün ilk addım atıldı

Eks-nazir müavininin müstəntiq oğlunun "toxunulmazlığı" götürüldü; Turqay Aslanovu 300 minlik "Bentley"dən düşürüb maşınını cərimə meydançasına apardılar; Lamiyə Quliyeva: "Aslanovlar həbs edilməlidir, başıma bir iş gəlsə..."

yazısı səh.10-da



*İlham Rəhimov:*

### "Parlament seçkilərinə qatılmaq barədə hələ düşünməmişəm..."

yazısı səh.5-də



*Pənah Hüseyn:*

### "Müxalifət sevinmir, təkliflər verir"

yazısı səh.4-də



### Əli Həsənov prezidentin köməkçisi təyin olundu

yazısı səh.2-də



Fevralın 23-də Musavat Partiyası Mingəçevir şəhər təşkilatının fəalı Osman Osmanovun 50 yaşı tamam oldu. Ötən əsrin 80-ci illərinin sonlarından ölkədə geniş vüsət almış milli-azadlıq hərəkatının öncüllərindən olan Osman bəy həm də 33 ilə yaxındır mətbuat yayımı sahəsində çalışır. İşinin vurğunu olması və peşəkarlığının nəticəsidir ki, bu gün Mingəçevirdə yazı-pozuyla azacıq da olsa maraqlanan insanların əksəriyyəti Osman bəyi tanıyır.

Dost-tanışların zarafatla "media-maqnat" adlandırdıqları Osman bəyi bu yubiley münasibətilə ürəkdən təbrik edir, ona sağlıqlı uzun ömür arzulayırıq. Qoy, yaşının üstünə gələn hər il onun üçün unudulmaz, xoşbəxtliklərlə dolu olsun!

Müsavat Partiyası Mingəçevir şəhər təşkilatı və "Yeni Müsavat" qəzetinin kollektivi

# Müsavat rəhbərliyi ADR-dəki partiya üzvlərinin sayını açıqladı

**Gülağa Aslanlı:** "Müsavatı ittiham eləyən adamlar özləri ilk gündən nizamnaməni pozublar"



**Müsavat Partiyasının sabiq üzvü Qubad İbadoğlunun sədrliyi ilə Azərbaycan Demokratiya və Rifah Hərəkatının fevralın 21-də təsis konfransı oldu. Təsis konfransında diqqət çəkən məqamlardan biri həmin təşkilatdakı şəxslərin sırasında sabiq müsavatçılarla yanaşı, hazırda Müsavat Partiyasının üzvü olan şəxslərin də təmsil olunmasıdır. Digər bir məqam isə bir neçə tanınmış Müsavat Partiyası üzvünün (məsələn, Mehman Cavadoğlu, Məryəm Oruclu) təsis konfransının gedişində ADR-ə üzv yazılmaları olub.**

Bəs, Müsavat Partiyasının rəhbərliyi ADR-in təsis konfransını izləyiblərmi, həmin təşkilatda neçə nəfər Müsavat üzvünün olduğundan məlumatlıdırlarmı və onlar barəsində hansısa tədbir görüləcəkmi?

Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, onların özlərinin verdiyi rəsmi məlumata görə, yaratdıqları təşkilatın 267 nəfər üzvü var. 267 nəfərdən Müsavat Partiyasının üzvü olanların sayı heç yüz nəfər də deyil. Oradakı Müsavat üzvlərinin sayı yüzdən aşağıdır.

G.Aslanlı onu da dedi ki, konfransda iştirak edən Müsavat üzvlərinin bir çoxu özləri də bəyan ediblər ki, həmin təşkilatın üzvü deyillər, sadəcə tədbirə qonaq kimi dəvət olunublar və qonaq kimi iştirak ediblər: "Hikmət Hacızadə, Rafiq bəy İsmayıl, Tural Abbaslı və digər bir neçə şəxs də dəvət olunanlar qismində orada iştirak ediblər. Həmin təşkilata üzv olan Müsavat üzvlərinin əksəriyyəti isə Müsavat Partiyasında son zamanlar fəaliyyəti çox aşağı olan adamlardır. Eyni zamanda onlar Müsavat Partiyasının üzvü olaraq qalırlar. Həmin adamlara ictimai təşkilata üzv olduqları üçün partiya cəzası verilməsi gözlənilmir. Ancaq həmin qurumdakı Müsavat üzvləri Müsavat Partiyasının Nizamnaməsini pozan hər hansı bir addım atacaqlarsa, Nizamnaməyə uyğun olaraq onlar haqqında tədbir görülə bilər".

Təsis konfransını izləyib-izləmədiklərinə gəlincə, G.Aslanlı dedi ki, həmin tədbir onun üçün maraq kəsb eləmədiyindən orada nələrin söylənildiyi, nə olduğu ilə maraqlanmayıb: "Amma onların özlərinin verdiyi məlumatda maraqlı görünən odur ki, həmin tədbirdə Nizamnamə qəbul ediblər və elə həmin gün də Nizamnaməni pozublar. Nizamnamədə gizli səsvermə yazıldığı halda açıq səsvermə ilə alternativsiz sədr seçkisi keçiriblər. Müsavat Partiyasını guya ədalətsiz seçki keçirməkdə ittiham eləyən adamlar özləri ilk gündən Nizamnaməni pozublar. Bu, mənim mətbuatdan oxuduğum məlumatdır".

❑ E.SEYİDAĞA

## Arif Yunusun həbs müddəti daha 5 ay artırıldı



**Nəsimi Rayon Məhkəməsində hakim Babək Pənahovun sədrliyi ilə Sülh və Demokratiya İnstitutunun həbsdə olan əməkdaşı Arif Yunusun barəsində seçilmiş həbs qətimkan tədbirinin müddətinin artırılması barədə istintaq orqanının verdiyi vəsatətə baxılıb.**

A. Yunusun vəkili Əfqan Məmmədov APA-ya bildirib ki, müdafiə etdiyi şəxsin həbs müddətinin 5 ay uzadılması barədə qərar qəbul edib.

Qeyd edək ki, Arif Yunus Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) və 178.3.2-ci (dələduzluq) maddələri ilə təqsirli bilinir. Ötən il avqustun 5-də həbs edilən A.Yunusun barəsində məhkəmə 3 ay müddətinə həbs-qətimkan tədbiri seçib. Oktyabr ayında həmin müddət fevral ayına kimi artırılıb

## Xədicə İsmayıl 2500 manat cərimələndi

### Məhbus jurnalist dostlarından məktub gözləyir

**Fevralın 23-də Bakı İstintaq Təcridxanasında bayraqdar Elman Türkoğlunun həbsdə olan jurnalist Xədicə İsmayıla qarşı iddiası üzrə məhkəmə prosesi davam edib. Bu barədə Azadlıq Radiosuna Xədicə İsmayılın vəkili Elton Quliyev məlumat verib: lEtirazlarımıza, məhkəmədə iştirak etmək istəyənlərin ərizələrini təqdim etməyimizə baxmayaraq, hakim prosesin açıq keçirilməsini təmin etmədi. Daha sonra Xədicəyə son söz demək təklif olundu. Xədicə prosesin qapalı keçirilməsinə etiraz olaraq son söz deməkdən imtina etdi və məhkəmə keçirilən zalı tərk etdi».**

E.Quliyevin dediyinə görə, müşavirə zamanı təcridxana əməkdaşları Xədicə İsmayılın zala qayıtmasına çalışsalar da, o, prosesdə iştirakdan imtina edib: "Müşavirədən sonra hakim növbəti dəfə qanunu pozaraq Xədicə İsmayılın iştirakı olmadan hökmü elan etdi. Xədicə 2500 manat cərimə olundu".

Müdafiə tərəfi məhkəmə hökmünü qanunsuz sayır, ittihamların məhkəmədə təsdiq olunmadığını bildirir. Məhkəmənin qərarından apellyasiya şikayəti veriləcək. Elman Həsənov (Türkoğlu) jurnalist Xədicə İsmayılın CM-nin 147.2-ci (böhtan) maddəsi ilə cinayət məsuliyyətinə cəlb olunmasını istəyirdi. Elman Həsənov jurnalistin öz lfacebook» hesabında yaydığı bir məlumatda şəxsi həyatına müdaxilə edildiyini və ona böhtan atıldığını iddia edir. Jurnalist ittihamı rədd edir və bunun siyasi motivli olduğunu bildirir.

Bu arada jurnalistin yaxınları və dostları məhkəmədə iştirak etmək istəsələr də, buna imkan yaradılmayıb. Bu barədə müstəqil jurnalist Aynur İmranova sosial şəbəkədəki statusunda yazıb. Onun bildirdiyinə görə, məhkəmədə iştirak üçün hakimə ərizə ilə müraciət etsələr də, ona məhəl qoyulmayıb və məhkəməyə buraxılmayıblar.

**Bundan başqa, A.İmranova X.İsmayılla telefonla danışdığını da sosial şəbəkədə elan edib:** "Xədicə İsmayılla danışdım, əhvalı əladır, hamıya salam dedi. Məni də pozitiv yüklədi. Bir də dedi ki, Kürdəxanı təcridxnasının rəhbərliyi ona poçtla məktub göndərilməsində problem olmadığını bildirib. Dedi, siz yazın, görək ona da maneçilik edəcəklərmi. Odur ki, Xədicə bizdən məktublar gözləyir".

❑ Sevinc TELMANQIZI

**Başsağlığı**

**Arif Hacılı və Müsavat Partiyasının Divanı Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbərə əmisi oğlu Məhyəddin Qəmbərin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**



## Əli Həsənov prezidentin köməkçisi təyin edildi

**Əli Həsənov Azərbaycan prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi təyin edilib. APA-nın məlumatına görə, prezident İlham Əliyev Əli Məhəmmədəli oğlu Həsənovun Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi təyin edilməsi haqqında bu gün sərəncam imzalayıb.**

Musavat.com Prezident Administrasiyasındakı mənbədən dəqiqləşdirib ki, Əli Həsənov prezidentin köməkçisi vəzifəsinə təyin edilməklə yanaşı, paralel olaraq Prezident Administrasiyasının ictimai-siyasi şöbəsinin müdiri vəzifəsini də icra edəcək.

## Asim Mollazadə Xocalı soyqırımının ildönümü ilə bağlı ABŞ-a gedib

**Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə Çexiya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vitezslav Pivonka ilə görüşüb. Görüşdə Azərbaycan-Çexiya münasibətləri, ölkələrimiz arasındakı gələcək əməkdaşlıq, regiondakı son durum müzakirə olunub. A.Mollazadə səfirə partiyanın fəaliyyəti barədə ətraflı məlumat verib.**

DİP-in mətbuat xidmətindən verilən məlumata görə, partiya sədri Argentina Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Karlos Dante Riva ilə də görüşüb. Görüşdə ölkələrimiz arasındakı münasibətlər, Azərbaycanın Latın Amerikası ölkələri ilə əməkdaşlıq perspektivləri, regional proseslər, Azərbaycan-Ermənistan münaqişəsi ətrafında yaranmış vəziyyət müzakirə olunub.

Partiyadan həmçinin bildirilib ki, Asim Mollazadə Xocalı soyqırımının 23-cü ildönümü ilə bağlı Türkiyədə keçirilən tədbirlərdə iştirak etdikdən sonra ABŞ-a gedib. O, Vaşinqton, Nyu-York şəhərlərində, həmçinin ABŞ-ın bir sıra ştatlarında Xocalı soyqırımı ilə bağlı müxtəlif tədbirlərdə iştirak edəcək, "Xocalıya ədalət" beynəlxalq kampaniyasına dəstək verəcək. Səfər zamanı millət vəkilinin Xocalı soyqırımının tanıdılması, Azərbaycan-Ermənistan münaqişəsinin həlli, o cümlədən, Azərbaycan-ABŞ əlaqələri ilə bağlı Birləşmiş Ştatların önəmli simaları ilə görüşləri nəzərdə tutulub.

❑ Vüqar MURAD

## Şamaxıda qanlı dava; iki qardaş bıçaqlandı



**Şamaxı rayonunda bıçaqlaşma hadisəsi baş verib. Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, hadisə Şamaxının Şəhriyar qəsəbəsində qeydə alınıb. Kənd sakini, 1995-ci il təvəllüdlü İbrahimov Samir Vüqar oğlu şəxsi münasibətlər zəminində aralarında baş verən dava zamanı həmyerlisi, 1994-cü il təvəllüdlü Manafov İsmayıl Pənah oğlunu və onun qardaşı, 1996-cı il təvəllüdlü Manafov Ramil Pənah oğlunu bıçaqlayıb.**

Hadisəni törədən Samir İbrahimov hadisə yerindən qaçıb. Xəsarət alan qardaşlar Şamaxı Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilərək əməliyyat olunublar. Hazırda Samir İbrahimovun tutularaq istintaqa təhvil verilməsi üçün Şamaxı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirləri həyata keçirilir. Faktla bağlı araşdırma aparılır.



## Prezident ünvanlı sosial yardımla bağlı fərman imzaladı

**Prezident İlham Əliyev ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında fərman imzalayıb. President.az saytının məlumatına görə, ölkə başçısı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) yaradılması haqda fərman verib.**

Fərmanda həmçinin VEMTAS-ın fəaliyyətinin təşkil olunması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Nazirlər Kabinetinə, dövlət oraqanlarına müvafiq tapşırıqlar verilib.

Həmçinin, Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verməlidir.

## Bakının bəzi əraziləri 30 saat susuz qalacaq

**Bakının bəzi rayonlarına içməli suyun verilməsində məhdudiyyətlər olacaq. Virtualaz.org saytı xəbər verir ki, "Azərsu" ASC-nin yaydığı məlumata görə, Maştağa və Ramana su anbarları komplekslərini birləşdirən magistral su xətlərinin yenidən qurulması ilə əlaqədar 24 fevral 2015-ci il tarixdə saat 04:00-dan etibarən Sabunçu, Suraxanı və Xəzər rayonlarının bəzi ərazilərinə içməli suyun verilməsində 30 saat müddətinə məhdudiyyətlər olacaq.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 41 (6069) 24 fevral 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Azərbaycansayağı yol əhvalatı

**Bir məsələ ilə bağlı fikirlərimi sizlərlə bölüşmək istəyirəm. Ölkəmizin yolları, xüsusən də kəndlərarası yollar haqqında danışacam. Avropaya, xüsusən, Almaniyaya gedib-gəlmiş adamlar buradakı yolların vəziyyəti haqda heyranlıqla danışırlar. Deyirlər ki, oradakı yollar çox hamardır, özü də fərqi yoxdur, istər magistral yollar olsun, istərsə də kəndlərarası əyalət yolları, hamisi şüşə kimidir.**

Bizdə isə ən bahalı magistral yollar şüşə kimi deyil, qalmışdı ki, kəndlərarası yollar olsun. Kəndlərarası yolları ən yaxşı halda tankdromla müqayisə etmək olar. Amma bizim kəndlərarası yolların çox hamar olduğu məqamları da var. Hətta o qədər hamar ki, şüşə də ona tay ola bilməz. Tez-tez təxminən aşağıdakı məzmunda sərəncamlar eşidirik: "İtqapanlı, Soğanverdilər, Küllübaş, Seçkiyəgetməz və Qırdıqaçdı kəndlərini birləşdirən yolun təmiri və yenidən qurulması üçün prezidentin ehtiyat fondundan 4 milyon manat ayrılsın." Etiraf edirəm ki, indi təqdim etdiyim yolun marşrutunu Cəlil Məmmədquluzadə, Zamin Hacı və mən birlikdə cızmışıq. Amma siz də etiraf edin ki, bu tipli sərəncamları AzTv-dən tez-tez eşidirsiniz. Bəs sizi heç düşündürmürmü, ayə, görəsən, bu kəndlərarası yolların məbləği niyə həmişə belə hamar alınır? Niyə belə alınmır ki, bu tip hansısa layihəyə tutaq ki, 2 milyon 220 min manat xərcləmək lazım gəlsin. Belə çıxır ki, Bərdədə, Balakəndə, Xaçmazda, Masallıda və s. rayonlarda prezidentin sərəncamı ilə təmir edilən və 5-6 kəndi birləşdirən yolların eni, uzunluğu, yolun keçdiyi yerin relyefi, quraşdırılacaq kommunikasiyaların sayı eynidir və çəkilən xərclər də həmişə hamar-yuvarlaq alınır. Bax, yollarımızın kələ-kötürlüyünün səbəbini, onların tikilməsinə və təmirinə ayrılan pulların hamarlığındadır. Avropada yolların tikilməsinə və təmirinə ayrılan pullar kələ-kötür olduğuna görə həmin yollar şüşə kimi hamar alınır.

**Sözsüz ki, Bərdədə yolların tikintisinə hamar pullar ayrılır. Əvvəla, orada hamar pullar ayrılmış yollar da mütləq şüşə kimi hamar alınır. İkincisi də dəyəri 10 milyonlarla, yüz milyonlarla, hətta milyardlarla ölçülən yolların tikintisi ancaq və ancaq tender əsasında hansısa şirkətə həvalə edilir ki, tender hərracında da yuvarlaq rəqəmin təsdiqlənməsi tamamilə təbiidir. Söhbət sifarişçisi də, icraçısı da dövlət qurumları olan kiçik həcmli yol layihələrindən gedir. Kəndlərarası yolların təmirinə və tikintisinə pul ayrılması haqda sərəncam oxunarkən korrupsiyanın qoxusu ekrandan dərhal mənzillərə yayılır. Hamı məsələnin nə yerdə olduğunu anlayır. Demokratik ölkədə bələdiyyə kəndin yolunu təmir etmək üçün mütləq ən ucuz və keyfiyyətli iş görən podratçı tapar və ona ödəniləcək məbləğ nadir hallarda bizdəki kimi hamar alınar.**

Bizdə təkcə yol tikintisinə ayrılan pulların məbləği hamar-yuvarlaq olmur. Elə götürək seçkilərin nəticələrini. Hər seçkidə MSK YAP-ın qələbəsini bildirən rəqəmləri elan edir. Onlar çox hamar və yuvarlaq olur. Çünki, MSK-ya yuxarıdan gələn sərəncamda bu rəqəmlər çox hamar-yuvarlaq göstərilir. Amma yolları hamar, həyatları firavan olan demokratik ölkələrdə seçkilərin nəticələri çox nahamar, kələ-kötür olur. Bizdə baxırsan seçkidə rəqibinə 1 və ya 1,5 faiz fərqlə qalib gəlmiş fəaliyyətdə olan prezident sevincindən elə atılıb düşür ki, sanki rəqibini elə birinci raunddaca nakauta salmış qara dərili boksçudur. Heç olmazsa bizim iqtidardan utanaydılar barı. O, qələbəni o qədər sadə, o qədər adi qarşılayır ki, sanarsan ölkədə heç seçki-zad keçirilməyib. Hətta adam bir az əsəbi də görünür. Sanarsan ki, 100 faizdən rəqibinə 1-2 faiz ayırdığına peşmandır. Hamarlıq bir az pozulur axı. Lakin bu qan-qaraçılıq çox çəkmir. Bir-iki gündən sonra "İtqapanlı, Soğanverdilər, Küllübaş..." tipində bir sərəncam imzalanır və hər şey qaydasına düşür.

# Böyük Britaniya səfiri "Xəzər Adaları"nda

## Səfir İrfan Siddiq: "Khazar İslands" cəsarətli və cəlbedici layihədir"





**Böyük Britaniyanın Azərbaycandakı səfiri İrfan Siddiq "Avesta Konsern"in həyata keçirdiyi "Khazar İslands" layihəsinin həyata keçirildiyi əraziyə səfər edən növbəti səfir olub. İrfan Siddiqdən əvvəl isə onun İtaliya, Türkiyə, Avstriya, ABŞ, Yaponiya, İspaniya, Rusiya, İsrail, Malayziya, Səudiyyə Ərəbistanından olan həmkarları Xəzərin mavi suları üzərində salınan möhtəşəm şəhər kompleksinə səfər etmişdilər.**

Böyük Britaniya səfirini qarşılayan "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli hörmətli qonağa rəhbərlik etdiyi şirkət, onun həyata keçirdiyi layihələr və "Khazar İslands" layihəsi haqqında ətraflı məlumat verib. "Khazar İslands" layihəsi çərçivəsində həyata keçirilən işlərlə yaxından tanış olan səfir İrfan Siddiq Hacı İbrahim Nehrəmlini belə böyük layihəyə imza atması münasibəti təbrik edib. Diplomat bildirib ki, layihə çox cəsarətli addımdır və Azərbaycanın həyata keçirdiyi digər böyük layihələr kimi bunun da uğuru olacağına ümid edir. "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli də prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın çox böyük uğurlara imza atdığını qeyd edib və "Khazar İslands" layihəsinin də yeni bir nailiyyət olacağına inandığını söyləyib. Böyük Britaniyanın Azərbaycan iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biri olduğunu qeyd edən səfir İrfan Siddiq Britaniya-Azərbaycan əlaqələrini daha inkişaf etdirmək üçün əlindən gələni etdiyini bildirib və "Khazar İslands" cəlbedici layihə kimi xarakterizə edərək ölkəsindən olan şirkətlərin bu şəhərin tikintisinə qoşulmasına da yardım edəcəyini vurğulayıb. Hacı İbrahim Nehrəmli qeyd edib ki, "Khazar İslands" layihəsinə dünyanın bir neçə ölkəsindən olan böyük şirkətlər maraq göstərir və onların sırasında Böyük Britaniyana şirkətlərini görmək istərdilər.





Diplomat qeyd edib ki, iki ölkə arasında olan xoş münasibətlər, sıx iqtisadi əlaqələr bu əməkdaşlıq üçün möhkəm təməldir və bundan istifadə etmək lazımdır. "Khazar İslands" şəhər kompleksinin fəxri qonaqlar kitabına ürək sözlərini də yazan səfir İrfan Siddiq layihənin həyata keçirilməsində uğurlar arzu edib və tikinti işlərini yaxından izləyəcəyini bildirib.

❑ **Xəbər XİDMƏTİ**

# "Kimsə əhalidən gəlir götürməyə çalışacaqsa, o insanlar cəzalandırılmalıdır"

## Siyavuş Novruzov: "Gərək pul-para ola ki, dəyişəsən"; "Hökumətin bununla bağlı proqramı, planı var"





**Azərbaycan manatının dollar və avro ilə müqayisədə dəyərdən düşməsi hətta hakim partiyanın təmsilçiləri üçün də gözlənilməz olub. Situasiyanın gözlənilməzliyi YAP-çı ekspert və deputatların manatla bağlı müzakirələrdə daha həvəssiz danışmalarından da aydın görünür. Məsələ ilə bağlı YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov "Yeni Müsavat"a bunu etiraf etməsə də, onun cavablarından bunu aydın şəkildə sezmək olar. Yeri gəlmişkən, Milli Məclisin 24 fevral plenar iclasında da Mərkəzi Bankın manatla bağlı verdiyi qərarın əsas müzakirə mövzusu olacağı, bəzi deputatların izahat istəyəcəyi gözlənilir. S.Novruzovla söhbətimizi təqdim edirik:**

***- Siyavuş bəy, siz adətən hökumətin atacağı addımlardan qabaqcadan xəbərdar olursunuz. Bu dəfə manatı gözləyən ucuzlaşmadan məlumatlı idinizmi? Heç olmasa özünüzün pul-paranızı dəyişə bildinizmi?***

- Əvvəla, gərək pul-para ola ki, dəyişəsən (gülür). Ümumiliklə isə bu, dünyada gedən bir prosesdir. Təbii ki, bununla bağlı izahat aparılmalıdır. İqtisadi İnkişaf Nazirliyi və digər qurumlar bəzi möhtəkirlərə, süni qiymət artımına gedənlərə qarşı ciddi mübarizə tədbirləri görməlidir. Yeni bu məsələdə əhalinin maraqları müdafiə olunmalıdır.

***- Manatın dəyərdən düşməsi gözlənilən idi, ancaq ilin axırına qədər və tədricən baş verəcəyi deyilirdi. Qəfil nə baş verdi?***

- Məncə, bunu iqtisadçılar, bank sektorunda çalışanlar daha yaxşı izah edə bilərlər.

***- Siz də hakim partiyanın rəhbər şəxslərindənsiniz və yəqin məsələyə biganə deyilsiniz. YAP rəhbərliyi bu situasiya barədə xəbərdar idimi?***

- Yenə deyirəm, bununla məşğul olan strukturlar var və onlar məsələ ilə bağlı kifayət qədər məlumat verə bilərlər.

***- Gözlənilən budur ki, ölkə başçısı növbəti dəfə məsələyə müdaxilə edəcək. Bu barədə nə deyə bilərsiniz?***

- Bu, mənim səlahiyyətim daxilində olan məsələ deyil.

***- Əhali arasında mövcud olan bu ajiotajı səngitmək üçün nə təklif edirsiniz? Yeri gəlmişkən, 24 fevralda parlamentin iclası var və yəqin bu məsələ əsas müzakirə mövzusu olacaq.***

- Yəqin ki, addımlar atılacaq. Hökumətin bununla bağlı proqramı, planı var. Bununla bağlı hökumət özü açıqlama verəcək.

***- Bölgələrdə bahalaşmaya etirazla əlaqədar aksiyalar olub və növbəti aksiyalarla bağlı xəbərdarlıqlar edilib. Bu vəziyyət ölkədə sosial gərginlik yarada bilərmi?***

- Bundan istifadə etməyə çalışanlar olacaq. Ən doğrusu odur ki, insanlara məsələ düzgün şəkildə izah olunmalıdır. Hökumətin özünün də sərt proqramı var, onu da açıqlayacaq.

***- Bəzi deputat həmkarlarınız elə hesab edir ki, Mərkəzi Bankın rəhbərliyi parlamentə gəlib nədən bu qərarın qəbul olunması ilə bağlı izahat verməlidir. Razılaşırsınızmı?***

- Bunu kim deyibsə, ondan soruşmaq lazımdır. Mən başqasının əvəzinə danışa bilmərəm. Hər bir deputat çıxış etmək, təklif vermək, fikir yürütmək səlahiyyəti var. Bu baxımdan da o, öz fikrini deyirsə, özü də əsaslandırmalıdır.

***- Qiymətlərin artımından, malların yığışdırılmasından, bəzi satış obyektlərinin bağlanmasından xəbəriniz olmamış deyil.***

- Təbii ki, bununla bağlı ciddi addımların atılması istisna deyil. Dövlətin müvafiq strukturları var və bu məsələyə ciddi nəzarət etməlidir. Çünki onlar hamısı malı köhnə qiymətə alıb, bugünkü qiymətlə almayıb. Onların qiyməti qaldırmağa ixtiyarı yoxdur. Nəzarət olunmalıdır və kimsə əhalidən gəlir götürməyə çalışacaqsa, o insanlar cəzalandırılmalıdır.

***- Yəqin özünüz də dükan-bazarda olubsunuz, alış-veriş edibsiniz. Sizdən də artıq pullar alınıb?***

- Hələ alış-verişə çıxmamışam. Elə bir ehtiyac olmayıb. Yəqin ki, axşamtərəfi bir-iki yerə dəyəcəyəm.

***- Bəzən Azərbaycanda baş verənlərdə xarici faktorların izi axtarılır. Burda xarici faktorların axtarılması üçün əsas görürsünüzmü?***

- Yenə də deyirəm, bu, mənim sahəm deyil. Ona görə də bununla bağlı hər hansı fikir bildirə bilmərəm...

❑ **E.PAŞASOY**



# Qiymət artımı kütləvi etirazlara səbəb olacaqmı?

**Azər RƏŞİDOĞLU**

**Manatın "ölməsi" və ölkədə son qiymət artımı sosial narazılıqlara səbəb olmaqdadır. Lakin narazılıqlar hələlik özünü məişət zəminində büruzə verir.**

Prinsipcə, ölkədə qiymət artımı aclıq həddində olan cəmiyyətdə sosial partlayışa səbəb olmalı idi. Ən azından müxalifət dərhal, vaxt itirmədən sosial tələblərlə küçə və meydanlara axışmalı, protest elektoratını "sıravi vətəndaşın kəfən pulunu əlindən almağa hazırlaşan" iqtidara qarşı irimiqyaslı aksiyalara başlamalı idi. Sağlam məntiq bunu tələb edirdi. Azərbaycanda isə bu baş vermədi. Görünən budur ki, siyasətçilər üçün xalq amili mövcud deyil.  Lakin hiss olunur ki, Azərbaycanın əksər siyasi qüvvələri artıq parlament seçkilərinə hazırlaşır. Kimlərsə cırtdan partiyalar təsis edir, kimlərsə fraksiyaların vacibliyindən danışır, kimlərsə artıq indidən seçkinin taleyini həll edəcək "əsas seçici"yə çıxış axtarır.

Aparıcı partiyalarda mərkəzdənqaçma tendensiyaları baş verir. Bir sözlə, seçkiyə hazırlıq gedir, lakin xalqın rəyini heç kəs nəzərə almaq belə istəmir.

Kənardan görünən odur ki, qarşıdan gələn parlament seçkiləri əsasən müxtəlif oliqarxlar arasında gedəcək. Belə olan vəziyyətdə seçkinin nəticələri də şübhə doğura bilər. Ümumiyyətlə, son illər keçirilən bütün seçkilərin nəticələri böyük şübhə doğurub. Azərbaycanda bircə dəfə də hamının etibar etdiyi seçkilər keçirtməyib.

Qərbin artan təzyiqlərinə də bel bağlamaq düz olmazdı. Qərb də gənc Azərbaycan demokratiyasını qoruya bilməyib. 2015-ci ildə Azərbaycanda keçiriləcək parlament seçkilərində də oxşar vəziyyətin təkrarlanacağı istisna edilmir.

Əslində, bir az geniş bucaqdan baxanda, analoji siyasi mənzərəni postsovet məkanındakı ölkələrin əksəriyyətində görmək mümkündür. Düzdür, əksər ölkələrdə demokratik seçkilər keçirilir, lakin klassik siyasətçilər məğlubiyyətə uğrayırlar.

Nə baş verir? Liberal düşüncəli insanların bu cür genişmiqyaslı iflasının səbəb nədir? Bəzi analitiklər bunu liberal ideyaların böhranı kimi dəyərləndirirlər, amma məsələyə təkcə bu rakursdan yanaşmaq düzgün deyil.

Əsas səbəb siyasi böhranda və geosiyasi maraqlardadır. Postsovet məkanında sağ ideyaların daşıyıcısı olan siyasi fiqurların demək olar ki, mühüm bir hissəsi cəmiyyətin nəzərində şübhəli imicə malik insanlardır, toplum onlara inanmaq, etibar etmək istəmir. Düzdür, bu insanların çoxu əxlaqlı siyasətin daşıyıcılarıdır, lakin MDB məkanı belə insanlar üçün qəbiristanlığa çevrilib. Belə siyasətçil?r isə hətta ən ali ideyanı da xilas edə bilməzlər, əksinə, ideyanın özü gözdən düşə bilər.

Hazırda postsovet məkanında bu proses gedir: "işlənib tükənmiş" fiqurlar liberal ideyaları gözdən salırlar, sonra əks əlaqə başlayır - liberal ideyalar öz daşıyıcılarına fayda gətirmək qabiliyyətini itirir; cəmiyyət əks ideyalara maraq göstərməyə başlayır. Avtoritarizmə meyl məhz belə başlanır. Avtoritarizm istənilən ideyadan daha cazibəli görünür, çünki hər halda, praktik əsası var. Hətta nəzəri ideologiya nə qədər əsaslı və gözəl olsa belə, onunla daha rəqabət apara bilmir.

Bu gün Azərbaycan cəmiyyəti yeni impulslar həsrətindədir. Yeni texnologiyalar tətbiq edilməyəndə isə cəmiyyət donur. Liberalizm - tükənməyən bir ideologiyalar toplusu olsa da radikal tendensiyalar qarşısında duruş gətirə bilmir. Lakin bədbinliyə də əsas yoxdur. Daima yeni model tapıla bilər. Əsas məsələ yenilik axtarışında olmaqdır.

**Hakimiyyət nə qədər güclü görünsə də, bir o qədər də problemlərlə üz-üzədir. Əlindəki bütün vasitələrlə hücuma keçən hakimiyyət daha sərt idarəçiliyi göstərməyə başlayıb. Bu təbii zəiflikləri bilən demokratik müxalifət sistemin köklü dəyişikliyinə nail olmaq, onu çökdürmək üçün bilərəkdən "Axilles dabanı"nı dərinləşdirməyə cəhd göstərməlidir. Qiymət artımı müxalifətə əlavə divident qazandırmaq gücündədir...**

# "Müxalifət sevinmir, təkliflər verir"

## Pənah Hüseyndən hökumətə kritik təkliflər; Azərbaycanın sabiq baş naziri son iqtisadi vəziyyəti şərh edib

**AXP sədri, Azərbaycanın sabiq baş naziri Pənah Hüseyn "Yeni Müsavat" qəzetinin son günlərdəki iqtisadi vəziyyətlə bağlı suallarına cavab verərkən bir sıra məqamlara toxunub. Müxalifətin tanınmış ideoloqlarından olan P.Hüseyn deyib ki, müxalifət indiki duram qətiyyən sevinmir: "Bu vəziyyəti müxalifətin sevinməsi, digərlərinin qəmlənməsi kimi poetik ifadələrlə təsvir etməyi mən doğru saymıram.**

Amma fakt ondan ibarətdir ki, hələlik daha çox maliyyə böhranı kimi təzahür edən bu böhran sistem xarakterlidir, sistem böhranıdır və iqtisadi - siyasi həyatın bütün sahələrinə sirayət edir. Bunun idarə olunmayan bir prosesə çevrilməsinin qarşısının alınması imkanları hələ qalır və əlbəttə ki, bu hakimiyyətin vəzifəsidir. Adi vətəndaşlar, sahibkarlar manatın bir-birə 30-35 faiz ucuzlaşmasından çox ciddi problemlərlə üz-üzə qalsalar da , eyni zamanda ən çox devalvasiya olunan iqtidarın siyasi nüfuzu oldu.  Faktiki olaraq, manatla birlikdə hakimiyyətin siyasətinə və hakimiyyətə olan inam, etimad sarsılıb. Bu faktdır. O baxımdan bu vəziyyətin ölkədə siyasi nəticələri də olacaq. Müxalifət belə bir vəziyyəti nəzərə almaqla, öz siyasətində müəyyən dəyişikliklər edəcək. Hər halda, bu situasiyada müxalifətin sosial bazasının möhkəmlənməsi, artması labüddür".

**Pənah Hüseyn deyib ki, onun vəziyyətə dair təklifləri var:** "Mənə elə gəlir ki, yaxın günlərdə və hətta bəlkə də yaxın saatlarda bəzi inzibati tədbirlərin şahidi olacağıq. Hələlik iki gündür ki, istər hökumət, istər Mərkəzi Bankın maliyyə sektorunun rəsmiləri susurlar. Mən bunu o qədər də əlverişli taktika hesab eləmirəm. Ən azı bu gün maliyyə naziri, Mərkəzi Bankın rəhbəri, baş nazir yaranmış vəziyyət barədə cəmiyyət qarşısında çıxış eləməlidir. Fevralın 24-də Milli Məclisin plenar iclasıdır. İndi bizdə Milli Məclis nə qədər formal xarakter daşısa da, hər halda məsul şəxslər Milli Məclisə çağırılmalıdır.



Pənah Hüseyn

Bilirsiniz ki, hələ ötən həftənin üçüncü günü "Azadlıq-2015" seçki blokunun iclasında xüsusi olaraq milli valyuta ətrafında yaranmış vəziyyəti müzakirə eləmişdik. Mətbuatda da bu barədə qərarımız dərc olunmuşdu. Hökumətə bu vəziyyətin xalqın, vətəndaşın və milli sahibkarlığın maraq və mənafelərinə uyğun idarə olunması çağırışı ilə müraciət eləmişdik . Öz təkliflərimizi də hazırladığımızı bildirmişdik. Bizim təkliflərimizdə əsas konsepsiya ondan ibarət idi ki, təxminən yaya qədər az- çox stabil məzənə saxlansın, əhali və bank sistemi buna tədricən uyğunlaşsın. Artıq bu təklif özünün qüvvəsini itirmiş sayıla bilər. İkincisi ondan ibarət idi ki, manatın ucuzlaşmasının sosial nəticələri, xüsusən aztəminatlı ailələr, təqaüdçülər üçün problemlər yaratmasının qarşısını almaq üçün ekstra tədbirlər planı ortalığa qoyulsun. Konkret ünvanlı güzəştlər məsələsi yenidən gündəmə gəlməlidir. Xüsusən ərzaqla bağlı. İctimai nəqliyyatın, elektrikin, qazın, benzinin qiymətində heç bir halda artıma gedilməməlidir. Hətta bu sahələrdə müəyyən ucuzlaşmalara getmək vacibdir. Aztəminatlı şəxslər üçün təyinatlı ərzaq mağazalarının yaradılmasına başlamaq lazımdır. Türkiyədə bu praktika var. Halbuki, Türkiyənin ümumi iqtisadi vəziyyəti bizdən heç də pis deyil. Dövlət sektoruna aid olan xidmət sahələrində, təhsildə, səhiyyə xidmətlərində heç bir halda qiymət artımına gedilməməlidir. Milli sahibkarlığın vəziyyətinə müsbət dəyişiklik olması üçün korrupsiya amili aradan qaldırılmalıdır. Qanunsuz monopoliya , haqsız rəqabət ləğv edilməlidir. Dollarla kredit götürənlərə onun qaytarılmasında ciddi problemlər yaşanmaması üçün addımlar atılmalıdır təminatlar verilməlidir. Ya kreditlər götürüldüyü dövrdəki məzənnə ilə qaytarılmalıdır, ya da dövlət yeni məzənnədən sonra yaranmış fərqin ödənilməsini öz üzərinə götürməlidir. Gömrük və vergi sistemində korrupsiya ilə büdcədən kənarda saxlanıb mənimsənilən təxminən 10 milyarda yaxın vəsait var. Onun büdcəyə yönləndirilməsi üçün tədbirlər görülməlidir. Ola bilsin ki, bu gün büdcənin doldurulması, büdcə kəsirini yerinə yetirmək üçün manatın bu cür ucuzlaşdırılması addımı kimlər üçünsə cəlbedici görünsün, kimlərsə ola bilsin birinci şəxsi inandırıb ki, neftin ucuzlaşmasının yaratdığı kəsiri bu yolla və xaricdən alınmış kreditləri manata çevirməklə doldurmaq olar. Bizdə olan məlumatlara görə, iri oliqarxlara məxsus şirkətlər Mərkəzi Bank xətti ilə manatla çox böyük kreditlər götürüblər. İndi həmin kreditləri manatın ucuzlaşması şəraitində və xaricdən götürülmüş kreditlər vasitəsilə ödəmək fikirləri var. Ola bilsin ki, bunlar məlum qərarın qəbul olunmasında ilk nəzərdə cəlbedici görünüb. Lakin bütün bunlar bir növü yanğınsöndürmə tədbirləridir. Amma bir daha təkrar edirəm ki, bunun siyasi nəticələrinin yarada biləcəyi sarsıntıları trilyon manatla da ödəmək mümkün olmayacaq. Ona görə də sistem xarakterli tədbirlər həyata keçirilməlidir. Sistem xarakterli iqtisadi o cümlədən siyasi islahatlara getmək lazımdır. Əks təqdirdə artıq çoxdan haqqında danışılan sarsıntılar labüd olacaq".

**❑ Etibar SEYİDAĞA**

# Azər Əsgərovdan AXCP sədrinə yeni ittihamlar

## Mülk sahibi Avropa Məhkəməsinə qədər getmək fikrindədir: "Əli Kərimli xarici ölkə səfirliklərindən 500 min manat pul alıb"

**Bir həftədən sonra AXCP-nin qərargahının sökülməsindən bir il ötür. Keçən müddət ərzində mülkün sahibi Azər Əsgərova kompensasiya ödənilməyib. Qərargahdan götürülən avadanlıqlar da ona qaytarılmır. Azər Əsgərov Avropa Məhkəməsinə qədər getmək fikrindədir. İş artıq Apelyasiya Məhkəməsindədir.**

Bu barədə "Yeni Müsavat"a mülk sahibinin özü məlumat verdi: "İşlərim əvvəlki vəziyyətdədir. Heç nə dəyişməyib. Mülkümlə bağlı kompensasiya tələb edirəm. Bu işi bitirəndən sonra mülkümü verdiyim AXCP ilə də mübarizəmi hüququ müstəvidə aparacam. Bu barədə açığı düşünməmişəm. Amma etdiklərinə görə yəqin ki, bu barədə də yekun qərarımı verəcəm. İlk məhkəmə tələbim qəbul edilmədi. Hazırda Apelyasiya Məhkəməsinə müraciət etmişəm. Burada da alınmasa, Ali Məhkəmə, ardınca Avropa Məhkəməsinə gedəcəm. Gördüyünüz kimi, meydanda tək qalmışam. Onların mülkümün dağıdılmasında əlləri var".

Azər Əsgərov AXCP sədrini ittiham etdi: " Mülkümün hesabına pul alıb, sakit dayandılar. Əgər onların əli olmasaydı, indi Əli Kərimli bütün cəbhəçiləri ora yığmışdı, mitinqlər keçirir, dünyaya car çəkirdi. İndi hardasan Əli Kərimli? Mülküm dağılıb. Bunu Allah götürməz. Şəxsi mülkümün hesabına Əli Kərimli pul qazanıb. AXCP-yə etibar edib, mülkümü onlara verdim. Lakin onlar da mülküm hesabına pul qazandılar. Eşitdiyimə görə, Əli Kərimli xarici ölkə səfirlikləri ilə görüşərək, bu işlə bağlı onlardan 500 min manat pul alıb. Guya ki, AXCP-nin qərargahı dağıdılıb. Bunu AXCP-nin daxilindən mənə dedilər. Bu partiyanın üzvlərinin mənə yazdıqları mesajları hər kəsə göstərəcəm".



Azər Əsgərov

**Mülk sahibi hazırda kirayədə yaşadığını da qeyd etdi:** "İşimi bitirməmiş, Türkiyəyə qayıtmaram. Deyirlər ki, vəkilin işi idarə edəcək. Amma getmək istəmirəm. Əli Kərimli haqqında nələr edəcəyimi çox yaxşı bilirəm. Konkret addımlar atacam. Deyir ki, böyük partiyayam. Əgər belədirsə, niyə qərargahını qorumadı? Ondan kompensasiya tələb etməyə hüququm yoxdur. Çünki qanunla bu belədir. Mülkümü hökumət söküb. Amma başqa istiqamətlərdə Əli Kərimlidən haqqımı tələb edəcəm".

**Xatırladaq ki, uzun illərdir Türkiyədə yaşayan və sahibkarlıq fəaliyyəti ilə məşğul olan A.Əsgərov mülkünü AXCP-yə qərargah kimi icarəyə vermişdi. Partiya orada yerləşəndən bir neçə ay sonra binada partlayış baş verdi və bunun ardınca həmin mülk söküldü. Mülkiyyətinin sökülməsi ilə bağlı Türkiyədən Bakıya gələn Əsgərov uzun müddətdir ona dəyən ziyanın ödənilməsini tələb edir.**

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 41 (6069) 24 fevral 2015

# “Parlament seçkilərinə qatılmaq barədə hələ düşünməmişəm...”

## İlham Rəhimov: “Azərbaycanda cinayətkarlığın səbəblərini və önlənməsini öyrənən institut yaratmağa ehtiyac var”

**Hüquq elmləri doktoru, professor İlham Rəhimov Minval.az saytına geniş müsahibə verib. Müsahibədə o, Ukrayna böhranı, kəlbəcərli girovlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsinin çətinlikləri haqda danışıb, həmçinin, Lamiyə Quliyeva ilə bağlı qalmaqallı tarixçəni şərh edib. (Qeyd edək ki, müsahibə götürüləndə Lamiyə Quliyeva hələ azadlığa buraxılmamışdı-red.) Müsahibənin 2-ci hissəsini təqdim edirik.**

*(Əvvəli ötən sayda)*

***- Bəs, belə vəziyyətdə necə olsun?***

- Belə hallarda bir qayda olaraq, girovların azad edilməsi əməliyyatı keçirilir. Bizim nümunəmizdə bu cür tədbir Rusiya ilə birgə mümkündür, çünki girovlardan biri bu ölkənin vətəndaşıdır. Əgər belə variant praktik cəhətdən mümkün deyilsə, onda “Qırmızı Xaç” tipli humanitar təşkilatların köməyindən istifadə etmək, habelə müxtəlif Avropa təşkilatlarına müraciətlər göndərmək olar. Bir sözlə, terrorçulara təsir eləmək üçün bütün mümkün vasitələri işə salmaq lazımdır.

Onu da qeyd edim ki, Moskvada mən bu məsələni öz şəxsi təşəbbüsümlə Rusiyanın bəzi hüquq-mühafizə strukturları və dövlət hakimiyyəti orqanlarının rəhbərləri ilə özəl qaydada müzakirə eləmişəm. Situasiya təbii ki, qeyri-adidir.

***- Ötən ay Azərbaycan DİN-in genişləndirilmiş Kollegiya İclası keçirildi. İclasda son zamanlar törədilən cinayətlərin statistikası da səsləndirildi. Belə məlum oldu ki, ölkədə cinayətkarlığın səviyyəsi artır. Sizcə, bu təmayül nədən xəbər verir?***

- Qeyd eləməyə dəyər ki, həqiqətən ötən il ölkədə cinayətkarlıq artıb. Əgər iki il qabaq DİN-in məlumatına görə, qeydə alınan cinayətlərin sayı 24 min olubsa, keçən il 24 700 olub. Sovet İttifaqının süqutundan sonrakı dönəmdən başlayaraq tendensiya artmağa doğru gedir. Bunun obyektiv və subyektiv səbəbləri var.

Obyektiv səbəblərə aşağıdakılar aiddir: ictimai-siyasi quruluşun dəyişdiyi istənilən cəmiyyətdə cinayətkarlığın artması həmişə müşahidə edilir. Və bu, o vaxtadək davam edə bilər ki, psixoloji, iqtisadi, siyasi baxımdan toplum bütünlüklə sabit şəkil alacaq.

Çoxları hələ də pula pərəstiş haqda, iqtisadi münasibətlərin yeni prinsipləri haqda, təzə tərbiyə metodları və qənaətcillik ruhunda insani əlaqələr haqda ideologiyanı və s. qəbul edə bilmir. Hələ XIX əsrin sonlarında Qarnavskinin söylədiyi bir fikir bu gün də çox yerinə düşür və aktualdır. Deyib ki: “Müasir sivilizasiya xalqların maddi rifahını yüksəltməklə yanaşı, həm də ictimai əxlaqda yararsız şəkildə əskini tapan qaranlıq tərəflərə də malikdir. Zənginləşməyə güclü həvəs və heç nə ilə əngəllənməyən, cəmiyyət üçün yalnız qaba və ziyanlı şəkildə əlçatan olan həzz yanğısı şəraitində individualizmin ifrat inkişafı - bütün bunlar mənəvi hisslərin zəifləməsinə təsir etməyə bilməz”.




İndi də ağır mənəvi ab-hava hökm sürür və bu atmosfer cinayətkarlığın artmasına çox ciddi təsir göstərir. Bu ab-hava heç şübhəsiz, əhalinin müxtəlif təbəqələrinin kəskin sosial qeyri-bərabərliyi ilə bağlıdır, nə vaxt ki, birilərinin rifah içində, digərlərinin isə yoxsulluqda olması aydın görünür.

Bütün bunlar təbii ki, cəmiyyətdə tamamilə dözülməz ovqat, deməli, həm də cinayətkarlıq üçün, xüsusən də tamah məqsədli, zorakılıqla, xüsusi qəddarlıqla törədilən cinayətlər üçün ən münbit zəmin yaradır. Məhz buna görə, toplumda mənəvi mühit normallaşanadək cinayətkarlıq artmaqda davam edəcək - hansını ki, mahiyyət etibarilə bütün postsovet məkanında müşahidə eləmək olar.

Mən narahat olmazdım, əgər cinayətkarlıq göstəricilərinin ümumən yüksək olmasına rəğmən, xüsusilə ağır cinayətlər, qəsdən adam öldürmələr, şəxsiyyət əleyhinə cinayətlər, zorlamalar az olsaydı. Bax onda həqiqətən də sevinmək olardı, ona görə ki, cinayətkarlıqla bağlı durum həmişə ən əvvəl ağır cinayətlərin dinamikası və strukturu ilə müəyyən edilir. Cibgirlərin sayının 500 və ya 1000 nəfər artması cəmiyyəti bir elə əndişələndirməyə bilər, amma qəsdən adamöldürmə hallarının ildən-ilə çoxalması - bu, artıq bizim üçün ciddi problemdir.




**“Cibgirlərin sayının 500 və ya 1000 nəfər artması cəmiyyəti bir elə əndişələndirməyə bilər, amma qəsdən adamöldürmə hallarının ildən-ilə çoxalması - bu, artıq ciddi problemdir”**

Keçən il qətllərin sayı 206 olub. Adətən rəqəm 200-ü keçmirdi. Son 10 ildə orta hesabla hər il 200 qətl hadisəsi baş verib. Balaca bir ölkə üçün bu göstərici normal sayıla bilməz. Ancaq bu, hələ bəlanın yarısıdır. Əsas problem ondadır ki, qətllərin xarakteri dəyişib, qətllər daha qəddar mahiyyət almağa başlayıb. İndi biz baş kəsmə ilə qətllər haqda tez-tez eşidirik. Bu gün insanlar öz qurbanlarına qarşı daha amansız olublar və çoxsaylı faktlar var ki, ailənin bir üzvü yerdə qalanları öldürür. Niyə belə olsun? Bütün bunlar bizim hüquq-mühafizə orqanları üçün təhlil predmeti olmalıdır. Bilmirəm, onlar bununla məşğuldurlarmı? Hər halda ictimaiyyət bu haqda məlumatlandırılmır.

Cinayətkarlığın artmasının səbəblərindən biri də əlbəttə ki, qaçqınlardır. İstəsək də, istəməsək də, Qarabağ münaqişəsi, qaçqınların həyat şəraiti - dövlət onların durumunu yaxşılaşdırmağa nə qədər səy eləsə belə - cinayətkarlıq statistikasını artırır, cinayətkarlığın vəziyyətinin xarakter və dinamikasına təsir göstərir.

Hərgah, bizim hüquq-mühafizə orqanlarımız əla material-texniki bazaya malikdir. Bütün bu imkanlar cinayətkarlıqla mübarizə naminə istifadə olunmalıdır. Ancaq səbəblər araşdırılmır. Dünyanın bir çox ölkələrində olduğu kimi, Rusiyada cinayətkarlığın səbəblərini və önlənməsini öyrənən institut var. Yaxşı olardı ki, bizdə də belə bir institut yaradılaydı.

***- Lamiyə Quliyeva ilə bağlı məsələyə də Sizin münasibətinizi bilmək istərdik.***

- Şübhə yox ki, bu, çox təsirli və dəhşətli bir hadisədir. Mən yalnız KİV-lərdəki materiallardan çıxış etməklə buna hüquqi qiymət verə bilmərəm. Ancaq əgər bütün bunlar həttа qismən həqiqətə uyğundursa, o zaman bu, bizim hamımızı çox şey haqda - hüquqi dərəbəylik, qanunsuzluq, insanların hakimiyyətə inamsızlığı barədə düşünməyə sövq edir.

Təcrübə göstərir ki, bir qayda olaraq, zorlanma qurbanları belə hallarda üç cür hərəkət edirlər: bir qisim baş verənlə barışır və öz yaxınlarından savayı heç kimə o haqda danışmır; digərləri əmin olaraq ki, günahkar cəzalanacaq, müvafiq hakimiyyət orqanlarına müraciət edir; nəhayət, üçüncü qrupdan olanlar təcavüzkardan qisas almaq məramı ilə yaşayırlar, çünki hüquq-mühafizə orqanlarının müvafiq tədbirlər görəcəyinə əmin deyillər.

Bəllidir ki, Lamiyə Quliyeva məşhur yunan filosoflarının prinsipi üzrə sonuncu variantı seçib: “Əgər səndən qiymətli nəyisə alıblarsa - barış, yox əgər sənin namusunu əlindən alıblarsa - qisas al”. Lamiyənin hərəkəti - təhqirə, aşağılanmağa, ona verilən cismani ağrıya görə tər-təmiz qisas formasıdır. O, bu hərəkəti eləməklə ondan çıxış edib ki, öz mənəvi borcunu yerinə yetirir. Lamiyə məhz qisasda öz hüququnu görüb, nədən ki, onu zorlama ilə təhqir edən adamın layiqli cəza alacağına əmin olmayıb.

Və buna görə biz onu qınaya bilmərik. Əlbəttə ki, o, düzgün yol seçməyib və bununla həm özünün, həm də ona yaxın olan bir çox insanların həyatını məhv edib. Lakin bu, şüurlu şəkildə edilib, çünki hesab edib ki, yalnız bu yolla belə bir təhqiri yumaq, yalnız bundan sonra o, özünün daxili ədalət hissini təmin edə bilər.

Prinsipcə qisas - şübhəsiz ki, keçmişin qalığıdır. Yeri gəlmişkən, istənilən millətin nümayəndəsinə xas bir xüsusiyyətdir. Və adətən qisas aktları əhalinin hakimiyyətə inamının itdiyi yerlərdə baş verir. Mən dərindən əminəm ki, Lamiyənin belə bir qisasa əl atmasının səbəblərindən biri - məhz Şəmkir rayon əhalisinin yerli hakimiyyət orqanlarına, o cümlədən hüquq-mühafizə orqanlarına inamının itməsi olub.

Onun qisası isə başqa bir qisas doğurub: müxtəlif bəhanələrlə çox sayda insan həbsə atılıb. Ona görə ki, qisas əgər dayandırılmasa, həmişə başqa bir qisasa vəsilə olur. Onu durdurmaq isə artıq dövlətin vəzifəsidir. Söz düşmüşkən, psixologiya elmi sübut edir ki, qan qisası insanın təbiətindədir və ondan heç kəs sığortalanmayıb. İndi hətta ən sivil xalqlarda belə qisas hallarına rast gəlmək mümkündür.

Lamiyənin hamiləlik faktına gəlincə, burada iki variant mümkündür - ya o, hələ ki, adı tam məlum olmayan kişi ilə könüllü şəkildə intim münasibətlərə girməklə, özü öz xoşu ilə uşaq doğub, ya da bu zorakılıqdır. İstənilən halda, faktla bağlı cinayət işi açılmalı, məsələyə aydınlıq gətirilməlidir. Ümumiyyətlə, belə situasiyalarda, ictimai rezonans doğuran bu cür işlərlə bağlı normal, sivil ölkələrdə yeni üzə çıxan xüsusatlarla əlaqədar iş təzədən təhqiqata göndərilir.

***- Və sonuncu sual. Bu il ölkədə parlament seçkiləri gözlənilir. Seçkilərə qatılmaq niyyətiniz varmı?***

- Açığı, bu barədə düşünməmişəm. Bununla bağlı hələlik istəyim qətiləşməyib. Hərgah, doğma rayonumdan bir çoxları məndən bu haqda soruşurlar.

**❑ Emil MUSTAFAYEV**
**Foto: İlkin ZƏFƏRLİ**

YENİ MÜSAVAT
N 41 (6069) 24 fevral 2015

# Manat "qara zolaqdan" nə vaxt çıxacaq?

## Qubad İbadoğlu: "Bu ərəfədə istehlakçılar və iş adamları ehtiyatlı olmalıdırlar"

**Ölkədə dolların manata nisbətdə kəskin bahalaşması cəmiyyətdə ciddi ajiotaj yaradıb. Mərkəzi Bank fevralın 23-nə 1 ABŞ dollarının rəsmi məzənnəsini 1,05 AZN səviyyəsində, 1 avronun rəsmi məzənnəsini isə 1,1950 AZN müəyyən edib. Həmçinin Mərkəzi Bankdan bildirilib ki, dolların rəsmi məzənnəsi fevralın 24-dək 1,05 manat səviyyəsində olacaq.**

Paytaxtın valyutadəyişmə məntəqələrində isə sakitlikdir. Vətəndaşlar daha çox manatın məzənnəsini öyrənmək üçün buraya baş çəkir. Əksər valyutadəyişmə məntəqələri isə hazırda dollar və manatın alqı-satqısı ilə məşğul olmur, əməliyyatları dayandırılıb.

Valyutadəyişmə məntəqələrinin əməkdaşları musavat.com-un əməkdaşı ilə söhbət zamanı bildiriblər ki, vətəndaşlar çaşqınlıq içindədir: "Hamı gəlir, manatın qiymətini soruşur, gedir. Dəyişmək istəyən çox azdır. İşləyən məntəqələr də azdır. Hamımız gözləyirik".

**Valyuta satışı ilə məşğul olan Samir Cəfərov bildirdi ki, Mərkəzi Bank rəhbərinin sözlərinə aldanan insanlar bir gecədə itiriblər:** "Dolları 1,02 manata almışdım, sonra qəflətən 1 manat oldu, sonra 95-ə düşdü. Axşam hətta 87-yə qoymuşdular. Bu epizodların fırlanması nəticəsində itirdim. Axşam 12-13 min dolar pul almışam 95-lə, enib 92-yə, qalmışıq belə. İndi istəyən olsa, sataram istəyən də yoxdur. Hamı gəlir, soruşur, qayıdır. İri firmalar dükanlara mal vermir. Gözləyirlər ki, mallar 40 faiz bahalaşacaq, buna görə mal vermirlər. Özümün banka dollarla kreditim var. 150 dolar idi, ayda 117 manat ödəyirdim, indi 62 manat itirirəm. Bir gecədə Elman Rüstəmov çıxdı və proseslər belə xaos yaratdı".

**Pensiyaçı Mübariz Musayev** isə deyir ki, baş verənlərdən hamı narahatdır və narazıdır: "Bizim dəyişməyə manatımız yoxdur. Amma bahalaşmadan qorxuruq. 190 manat pensiya alıram. Necə dolanım?". Manatın məzənnəsi ilə maraqlanan Eldar Süleymanov da deyir ki, bahalaşmanın davam edəcəyindən narahatdır: "Narahatıq, gözləyirik ki, nəsə olsun. Stabil bir qiymət olsun. Bahalaşmadan narahatıq. Bir kisə un 17 manat idi, indi 20 manatdan bahadır".



**Valyutadəyişmə məntəqəsi işlədən Sahib İsayev** də deyir ki, əhali daha çox gözləməyə üstünlük verir: "Hamı gözləyir ki, prezident qərar verəcək. Alan gözləyir ki, qiymət enəcək, satan da gözləyir bir az da qalxacaq. Biz Mərkəzi Bankın rəhbərinə inandıq".

Ekspertlər isə bildirirlər ki, baş verənlər hökumətin iqtisadi təzyiqlər qarşısında dayana bilmədiyini göstərir. İqtisadçı Qubad İbadoğlu bildirir ki, Mərkəzi Bank məzənnə siyasətinin yeni əməliyyat çərçivəsi barədə açıqlama verəndən 5 gün sonra ölkə üçün "iqtisadi qiyamət" hesab oluna biləcək hadisə yaratdı: "İdarə Heyətinin 21 fevral 2015-ci il tarixli qərarı ilə həmin günə 1 ABŞ dollarının rəsmi məzənnəsi 1,05 AZN səviyyəsində müəyyən etdi. Qərarını milli iqtisadiyyatın şaxələndirilməsinə əlavə stimullar yaratmaq, onun beynəlxalq rəqabət qabiliyyətini və ixrac potensialını daha da gücləndirmək, bu əsasda tədiyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlığını təmin etmək məqsədilə qəbul etdiyi rəsmi olaraq bəyan edən Mərkəzi Bank hazırkı iqtisadi təzyiqlər qarşısında nə qədər aciz olduğunu bir daha nümayiş etdirdi".

**Ekspertin sözlərinə görə, məzənnə siyasətində ikitərəfli məzənnənin hədəflənməsindən valyuta səbəti dəyərinin hədəflənməsinə keçidi elan etdikdən 5 gün sonra "şok terapiya" metodunu seçərək inzibati qaydada rəsmi olaraq manatın məzənnəsini dollara nisbətdə 33,5 faiz ucuzlaşdırılıb.** "Təhlillər göstərir ki, ilin başlanğıcında dövlət büdcəsinin mədaxil hissəsini təmin etmək xeyli çətin olub. Bu yükü əsasən qeyri-neft sektorunun üzərinə qoymaq istəyən fiskal orqanlar sahibkarları hələ 1-ci rüb başa çatmamış ciddi şəkildə dövlət orqanlarından narazı salıblar. Belə davam edəcəyi halda, bu il büdcənin idarə olunmasında ciddi çətinliklərlə üzləşəcəyindən narahat olan hökumət gəlirlərin nominal olaraq icra olunması üçün monetar üsulla tənzimləməyə qərar vermiş və manatın devalvasiyası yolu ilə 2015-ci il üçün milli iqtisadiyyatın qarşılaşdığı 3 əsas problemin həllinə stimul vermişdir. Bunlar büdcə gəlirlərinin nominal olaraq artımı, müvəqqəti də olsa alıcılıq qabiliyyətinin yüksəlməsi və valyuta ehtiyatlarının sürətlə azalma tempinin qarşısının alınmasıdır. Mərkəz Bankın bəyanatında göstərilən - milli iqtisadiyyatın şaxələndirilməsinə əlavə stimullar yaratmaq, onun beynəlxalq rəqabət qabiliyyətini və ixrac potensialını daha da gücləndirmək - çağırışlarına gəlincə, iqtisadçılara bəllidir ki, bu problemləri son illərin şüarına çevirən hazırkı hökumət illərdir ki, onların heç birini həll edə bilmir və manatın devalvasiyası ilə də ona nail ola biləcəyi şübhə doğurur". Ekspertin sözlərinə görə, manatın devalvasiyasına dair Mərkəzi Bankın əsaslandırması çox zəif görsənir və yenə də əsl həqiqətləri gizlətməyə xidmət edir".

**Onun sözlərinə görə, yalnız ötən ilin dekabr və bu ilin yanvar aylarında bu məqsədlə 2,2 milyard manatdan çox vəsait xərcləyən Mərkəzi Bank baş verənlərin və gözlənilənlərin məsuliyyətini manatın devalvasiyası qərarını verməklə özündən bir az uzaqlaşdırdı:** "Bu qərarın fevralın 21-də verilməsini əsaslandırarkən istinad olunan arqumentlərdən biri də hazırda onun sosial təsirlərinin bir neçə ay sonra ilə müqayisədə nisbətən zəif olacağı qənaəti idi. Həqiqətən də əmək bazarına xüsusilə də dövlət şirkətlərindən çıxarılan ixtisaslı işsizlərin və Rusiyadan geri dönən həmyerlilərimizin hesabına yeni və məhsuldar işçi qüvvənin daxil olması bu bazarda rəqabətin kəskinləşəcəyindən və işsizlərin sayının kütləvi artmasına görə sosial vəziyyətin getdikcə pisləşəcəyindən xəbər verir. Mərkəz Bank hesab etdi ki, əhali indi bu yükü götürməyə və devalvasiyanın xərclərini örtməyə indi bir neçə ay sonra ilə müqayisədə daha çox hazırdır".

**Onun sözlərinə görə, baş verənlər göstərdi ki, ölkə iqtisadiyyatı 25 illik keçid dövründən sonra da bazar iqtisadiyyatı qanunları ilə deyil, inzibati üsullarla tənzimlənir:** "Odur ki, böhranqabağı və ya böhran dövrdə milli iqtisadiyyatımız özü-özünü tənzimləmək funksiyasına malik deyil, ölkə iqtisadiyyatı hələ də də bir neçə səlahiyyətli şəxsin qərarından asılıdır. Belə olanda da hökumət, parlament və xalq qarşısında məsuliyyət daşımayan şəxslərdən yetərincə əsaslandırılmayan istənilən qərar gözləmək olar. Bu isə çox risklidir və hələ "sonuncu sürpriz" deyil. İnzibatı metodlara üstünlük verilən idarəetmədən yenə də sürprizlər gözləmək olar. Odur ki, bu ərəfədə istehlakçılar və iş adamları ehtiyatlı olmalıdırlar... Bu hadisə nümayiş etdirdi ki, heç bir siyasi sistem iqtisadi böhrana davam gətirə bilmir və hazırkı şəraitdə iqtisadiyyatın idarə edilməsi xeyli mürəkkəbləşib".

❑ Röya RƏFİYEVA

# Manatın məzənnəsi ilə bağlı təkliflər verildi

## Vüqar Bayramov: "Hökumət kompensasiya versin və..."

**Mərkəzi Bank rəsmi açıqlamalarına əksinə olaraq manatın yumşaq deyil, kəskin devalvasiyasını həyata keçirdi. Məzənnədəki kəskin azalmanın iqtisadi və sosial mənfi təsirlərini azaltmaq üçün hansı addımların atılmasına ehtiyac var?**

Bununla bağlı hökumətə təkliflər təqdim etdiyini deyən iqtisadçı-alim **Vüqar Bayramov** bildirib ki, Mərkəzi Bankın İdarə Heyətinin manatın məzənnəsi ilə bağlı qərara baxması və onu ya əvvəlki səviyyəyə, ya da öncədən rəsmi olaraq elan etdiyi 1 dollar 90 qəpik kursuna uyğunlaşdırması məqsədəuyğundur. Mərkəzi Bankın rəsmi vədinə zidd olaraq manatın kəskin ucuzlaşması iqtisadi və sosial baxımdan qəbul edilən deyil.

Vüqar Bayramov MUSAVAT.COM-A söyləyib ki, banklarda manatla əmanətləri olan vətəndaşların itkilərinin qarşısının alınması və ziyanın kompensasiya edilməsi üçün bir sıra təbii ehtiyatlara malik olan ölkələrdə olduğu kimi banklardan olan əmanətlərin əvvəlki məzənnə ilə dollara indeksasiyasının həyata keçirilməsinə ehtiyac var. Bu zaman indeksasiya ilə bağlı potensial və ya virtual xərclər dövlət tərəfindən qarşılanır. Məsələn, vətəndaş bankda 10 min manatlıq əmanət yerləşdirir və ya hazırda əmanəti var. Bu məbləğ Mərkəzi Bankın devalvasiyadan əvvəlki rəsmi məzənnəsinə əsasən 12 750 dollar edir. Müqavilə üzrə müddət başa çatdıqdan sonra isə əmanətçi öz manatla olan pulu götürən zaman milli valyutanın dəyəri aşağı düşdüyü halda isə yaranan fərq məhz indeksasiya olunduğu üçün dövlət tərəfindən qarşılanır. Bu o deməkdir ki, məsələn, 12750 dollarlıq manatla ifadə edilən əmanət milli valyuta devalvasiya nəticəsində 9523 dollaradək azalarsa o zaman yaranan 3227 dollar fərq məhz dövlət tərəfindən qarşılanır.



İqtisadçı-alim deyib ki, valyuta növü ABŞ dollar ilə göstərilən kredit müqavilələrdə devalvasiyadan sonra manatla ödənişlərdə güzəştlərin tətbiq edilməsinə ehtiyac var. Bu zaman Mərkəzi Bankın tövsiyəsi ilə həmin kredit faizlərinin aşağı salınması həyata keçirilə bilər. Bununla da, devalvasiya nəticəsində yaranan fərqin bir hissəsi aşağı faizlər hesabına kompensasiya edilə bilər. Bütövlükdə, Mərkəzi Bank çalışmalıdır ki, ödənişlər əvvəlki məzənnə ilə həyata keçirilsin ki, problemli kreditlərin həcmi artmasın. Əks halda vətəndaşların xarici valyuta ilə götürdüyü kreditlərin ödənilməsində ciddi çətinliklər olacaq.

Əmək haqqı artımların vacib olduğunu bildirən iqtisadçı deyib ki, manatın dəyərinin azalması büdcənin manatla daxil olmalarını artırdığı üçün dövlət büdcəsindən maliyyələşən işçilərin, xüsusən də müəllim və həkimlərin əmək haqlarının və eləcə də pensiya məbləğlərinin artırılması məqsədəuyğundur. Bu il dövlət büdcəsindən 6 milyard manat vətəndaşların əmək haqqı və pensiyalarının ödənilməsinə yönəldilməsi nəzərdə tutulub. Bu vəsaitin 3.5 milyard manatı əmək haqlarının, 1.9 milyard manatı təqaüd və sosial müavinətlərin, digər hissəsi isə sosial yardımların verilməsi üçün nəzərdə tutulub. Bu o deməkdir ki, büdcədən maliyyələşən bütün işçilərin əmək haqqı, pensiya və sosial xərclərini 20 faiz artırmaq üçün bu il orta hesabla 1.2 milyard manat vəsait lazım olacaq. Manatın məzənnəsinin aşağı düşməsindən sonra bu xərci qarşılamaq ciddi maliyyə çətinliyi yaratmamalıdır.

**Vüqar Bayramov onu da əlavə edib ki, süni qiymət artımlarına mübarizənin gücləndirilməsinə ehtiyac var. Ölkə idxal olunan məhsulların qiymətində artımın olması qaçılmazdır, çünki onların xərci manat ifadəsində yüksəlib. Bununla yanaşı, idxal məhsullarında kəskin, yerli məhsullarda isə qiymət artımlarının qarşısının alınması üçün tədbirlərin genişləndirilməsinə ehtiyac var.**

❑ Musavat.com

YENİ MÜSAVAT N 41 (6069) 24 fevral 2015

# Ümid Partiyası Mərkəzi Bankın qərarı ilə bağlı bəyanat verdi



**Ümid Partiyası Mərkəzi Bankın İdarə Heyətinin 21 fevral 2015-ci il tarixli qərarı ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir: "Mərkəzi Bankın İdarə Heyətinin 21 fevral 2015-ci il tarixli qərarı ilə həmin gündən 1 ABŞ dollarının rəsmi məzənnəsi 1.05 AZN səviyyəsində müəyyən edilib. Mərkəzi Bankın bu qərarı ilə Azərbaycan manatı birdən-birə 34 % ucuzlaşıb. Manatın dəyərdən düşməsi bazara dərhal öz təsirini göstərib. Artıq bazar və dükanlarda istər xaricdən gətirilən, istərsə daxili malların qiymətində sürətlə artım müşahidə edilir. Ümid Partiyası Mərkəzi Bankın pul siyasətinin əhalinin vəziyyətini ağırlaşdıracağını nəzərə alaraq, hökuməti bu istiqamətdə dərhal əlavə tədbirlər görməyə çağırır.**



Eyni zamanda Mərkəzi Bankın bu qərarını Azərbaycan Respublikası Mərkəzi Bankı Haqqında Azərbaycan Respublikasının qanununa zidd olduğunu bəyan edir.

Mərkəzi Bank haqqında Azərbaycan Respublikası qanununun 28.1 maddəsində çox konkret şəkildə göstərilib ki, Mərkəzi Bank qarşıdakı il üçün dövlətin pul siyasətinin əsas istiqamətlərini oktyabr ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikası Prezidentinə təqdim edir və dekabr ayının 31-dək kütləvi informasiya vasitələrində ictimaiyyətə açıqlayır. Azərbaycan Respublikasının Milli Bankı 2015-ci ilin bank və pul siyasətinin əsas istiqamətləri barədə informasiya verərkən manatın ucuzlaşması ilə bağlı da heç bir proqnoz verməmiş, əksinə dərc olunan məlumatlar pozitiv, əhalini aldadan və Mərkəzi Bankın 21 fevral qərarı ilə tam ziddiyət təşkil edib.

30 dekabr 2014-cü il tarixli Azərbaycan Respublikası Mərkəzi Bankının 2015-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatında manatın məzənnəsinin sabit qalacağı göstərilib: "Sosial rifahın və investisiya aktivliyinin qorunmasında mühüm rolunu nəzərə alaraq 2015-ci ildə də manatın məzənnəsinin sabitliyi mühüm prioritet olacaqdır".

Həmin qanunun 28.2 maddəsinə görə, Mərkəzi Bank qarşıdakı il üçün müəyyən etdiyi pul siyasətinin məqsəd və vəzifələrini Mərkəzi bankdan asılı olan və asılı olmayan amilləri də əks etdirməklə onların həyata keçirilməsi yollarını göstərməlidir. Təəssüflər olsun ki, bu dekabr ayının 31-nə qədər baş verməyib. Yanvar ayının sonlarına doğru isə manatın ucuzlaşmayacağını əsaslandırmağa çalışıblar. Lakin fevral ayının 21-də manatı 34 % ucuzlaşdırmaqla vətəndaşa, dövlətə, o cümlədən cəmiyyətin inkişafına çox ciddi zərər vurublar. Mərkəzi Bank əgər bu məsuliyyəti öz üzərinə götürüb manatın ucuzlaşmasının 34 % -lik bir həddini müəyyənləşdirirsə, əhalinin ziyan çəkməməsi üçün dərhal öz üzərinə öhdəliklər götürməlidir:

Dövlətlə münasibətdə olan hüquqi və fiziki şəxslərin borclarının- alınacaq və veriləcək borclarının üzərinə 34 % əlavələr olunmalı, 21 fevral tarixinə qədər banklarda öz pulunu manatla saxlayan vətəndaşların hamısına banklar vasitəsilə əlavələr ödənilməklə 34 % ödənişlər etməli, bütün maaşların hamısı 34 % miqdarında indeksasiya olunmalıdır.

Bu gün nazirlik və hökumətin bəzi strukturları öz günahlarını iş adamlarının üzərinə yıxır, iqtidarın pul siyasətindən doğan təbii qiymət artımında sahibkarları cəzalandıracaqlarını bəyan edirlər. Bu əslində yenidən cəmiyyəti və vətəndaşı aldatmağa yönəlik addım, öz günahını başqasının üzərinə yıxmaq cəhdidir.

Bütün bunların hamısı göstərir ki, baş verənlər yalnız hökumətin yarıtmaz pil siyasəti ilə bağlı deyil, həm də dəfələrlə bizim çağrış etməyimizə baxmayaraq tək sektorlu inkişaf yolunu tutmuş Azərbaycan hakimiyyətinin iqtisadiyyatın neftdən asılılığını aradan qaldıra bilməməsinin nəticəsidir.

Neftin qiymətdən düşməsi Azərbaycan iqtisadiyyatını çökdürməyə doğru aparır. Hökumət təcili tədbirlər görməlidir. Aztəminatlı , əhalinin büdcədən maliyyəşən hissəsini, o cümlədən orta və kiçik biznes təbəqəsinin müdafiəsi üçün yeni iqtisadi doktirina müəyənləşdirməli və maliyyə-pul siyasətində köklü dəyişikliklər etməlidir".

## Ümid Cəmil Həsənlinin qızı ilə bağlı hökmü pislədi

**Milli Şuranın sədri Cəmil Həsənlinin qızı Günel Həsənlinin 1 il 6 ay müddətinə məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkməyə məhkum edilməsilə bağlı Ümid Partiyası bəyanat verib.**

Bəyanatda deyilir: "Fevralın 20-də hakim Aqşin Əfəndiyevin sədrliyi ilə Yasamal rayon məhkəməsi ötən ilin sentyabr ayında baş vermiş avtomobil qəzası ilə bağlı Milli Şuranın sədri Cəmil Həsənlinin qızı Günel Həsənlini 1 il 6 ay müddətinə məntəqə tipli həbsxanada cəza çəkməyə məhkum edib. Günel Həsənlinin himayəsində iki azyaşlı övladı var, zərərçəkən isə məhkəmədə şikayətinin olmadığını bildirib, cinayət işi hüquq-mühafizə orqanlarının təşəbbüsü ilə fakt üzrə qaldırılıb. Ümid Partiyası Milli Şuranın sədri, professor Cəmil Həsənlinin qızı ilə bağlı "məhkəmə" qərarını qətiyyətlə pisləyir və bildirir ki, analoji hallarla bağlı çoxsaylı məhkəmə qərarları yüngül cəza növü müəyyən etmişdir. G. Həsənliyə tətbiq olunan cəza isə hakimiyyət strukturlarının fərqli düşüncəyə, tənqidə dözümsüzlüyü və qisasçılığı kimi qiymətləndirilməlidir. Ümid Partiyası yuxarı məhkəmə orqanlarını bu qərarı dəyişdirməyə və obyektiv qərar çıxararaq vətəndaş Günel Həsənlinin hüquqlarını bərpa etməyə çağırır".

## Ümidçi gənclərin "Fəlsəfə və siyasət" müzakirəsi

Şənbə günü Ümid Partiyasının Mərkəzi qərargahında Partiyanın Gender Bərabərliyi şöbəsinin təşkilatçılığı ilə "Fəlsəfə və siyasət" mövzusunda dəyirmi masa keçirilib. Analitik Təhlil və Siyasi Proqnozlaşdırma şöbəsinin müdiri Fəxrəddin Abdullayev mövzu ilə bağlı çıxış edib. Çıxışdan sonra mövzu ətrafında siyasi diskussiya aparılıb.









**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Manatı qaşımaq lazımdır!

Zamin HACI
zaminhaci@mail.ru

**Bu ölkə də bu günlərdə ən doğru iqtisadi-siyasi addım siyasi məhbusları əfv etmək olardı. Çünki onları güclənən manatın hesabına, neft pullarının havasında tutmuşdular. İndi manat düşüb, neft pulu ölüb, camaatı zindanda saxlamağın mənası yoxdur.**

Çoxsaylı büdcə zəhmətkeşləri, paket maaşları qəfil kəsilən yaltaqlar ordusu da, məncə, bu addımı dəstəkləyər, prezidentin ətrafında daha sıx birləşərlər.

Siyasi məhbusları buraxıb təzədən tutmaqla Mərkəzi Bankın valyuta kurslarına maraqlı izahatlar da vermək olar. Örnək üçün, manatın 33 faiz ucuzlaşmasını hüquq müdafiəçisi İntiqam Əliyevin belinə yükləmək mümkündür. Sən demə, o, öz mühasibi ilə əlbir olaraq xaricdən maliyyələşir, milli manatımızı yıxmaq üçün qara qüvvələrdən dollar alırmış! Hələ jurnalist Xədicə İsmayılı demirsən! Onu hətta həftədə bir dəfə əvf edib təzədən tutmaq olar. Qoy bu da “siyasi məhbusun əfvi kursunda dalğalanmalar” adıyla ədəbiyyata düşsün, BDU-nun hüquq fakültəsinin tələbələri Roma hüququ yerinə bunu öyrənsinlər. Bizə Romanın nə dəxli var? Sezarı çoxdan öldürüblər. “Xədicə İsmayıl qanunsuz sahibkarlıqla məşğul imiş” - prokurorluq bəyəm belə demirdi? İndi məlum olsun ki, Xədicə xanım Amerikadan gələn gizli işpiyonlarla əlbir olub (o casusların bir hissəsini stolun altında gizlənən deputat Ceyhun bala qətiyyətlə ifşa etmişdi) dolların kursunu süni şəkildə qaldırırmış.

Yeri gəlmişkən, bu “süni şəkildə qaldırmaq” da maraqlı ifadədir, hər dəfə belə qiymət artımları olanda hökumət ortaya atır. Misal üçün, benzini özləri guya təbii qaldırır, amma hansısa zəhmətkeş benzinin qiymətindəki artımı satdığı malın üstünə gələndə bu olur süni. Yaxud Elman müəllimin bir gecədə manatın üçdə birini cırması təbii imiş, ancaq orta statistik Filman müəllim dükanda qiyməti artıranda süni hərəkət edirmiş.

Çox maraqlı yanaşmadır. Onlar nə etsələr təbii, camaat nə etsə süni çıxır. Hətta İqtisadi İnkişaf Nazirliyi adında bir zırıltı qurumun varlığı da adətən bu zəhmətkeşlərin qiymət artımlarına “süni” yarlıkı yapışdıranda ortaya çıxır. Qurum bəyan edəndə ki, qiyməti süni qaldıranların ağzını cıracağıq, o zaman camaat deyir, bah, belə nazirlik də var, şükür sənə ya rəbb! Hardasan, ay Fərhad Əliyev... Gəl nazirliyinin cəlalına bax... (Yəni Cəlal Əliyevin Mirşahin müəllimə dediyi kimi yaxşı sözlər de).

Bir az özümüz də düz eləmədik. Keçən il SİAR adında təşkilat sorğu qayırıb, Azərbaycanı dünya xoşbəxtlik indeksində 5-ci yerə çıxarmışdı. Birinci yerdə isə xalqın lüt gəzib kokos qozu yediyi Fici ada dövləti durmuşdu. Azərbaycanda rəyi soruşulanların 85 faizi “mən xoşbəxtəm” demişdi. Nəticədə göz dəydi. Sizə lazım idimi? Məncə gələn dəfə soruşan olanda yalandan “bədbəxtlik basıb, torpağımız düşmən əlindədir, seçkilər saxta keçir, gələcəyə heç bir ümid yoxdur, özümüz də ilk fürsətdə xaricə qaçırıq” demək lazımdır. Qoy dünyada elə bilsinlər biz xoşbəxt deyilik, ağzının suyunu axıdan, gözünü bərəldənlər olmasın.

Maliyyə bazarında sabitliyi bərpa etmək üçün zəruri addımlar sırasında aşağıdakıları da təklif edə bilərəm, niyə paxıllıq olsun, dövlət hamımızındır, fəxr edirəm ki, azərbaycanlıyam:

Valyuta dəyişmə məntəqələrini hasarlamaq.

Mərkəzi Bankın ətrafını dairələmə fəvvarə eləmək. (Orta əsrə aid salnamələrdə qala müdafiəsi zamanı ətrafda su kanalı qazılması tipində).

Manatı möhkəmləndirmək üçün onu söküb təzədən yığmaq. Dənizkənarı bulvara daş döşənməsi işində bu metod uzun zamandır yüksək səmərə verir - ordan nə valyutalar çıxarılıb...

Manatı daha da möhkəmləndirmək üçün onu alkoponla üzləmək, laqonda ilə qaşımaq, manatdan dollara, avrodan manata sərbəst hərəkət üçün bunlar arasında analoqu olmayan yerüstü və yeraltı keçidlər qayırmaq.

**Hələlik bunlarla idarə edin, mənə ayrılan yer bitdi, inşallah, növbəti saylarda başqa səmərəli təkliflərimi yazaram.**

# “Əli Kərimli Azərbaycanda klassik siyasəti məhv elədi” - müavininin iddiası

## Razi Nurullayev: “AXCP sədri mənim facebook “layk”larımı sayır”



**Bir neçə gün öncə AXCP-də sədr müavinliyindən çıxarılan Razi Nurullayev “Yeni Müsavat”ın qonağı olub. 6 ilə yaxın fəaliyyət göstərdiyi partiyanın rəhbər orqanından çıxarılma səbəblərindən, eləcə də AXCP daxilindəki bir sıra proseslərdən danışan R.Nurullayev xeyli diqqətçəkən açıqlamalar verib. Onunla müsahibədə “Yeni Müsavat”ın baş redaktoru Rauf Arifoğlu, musavat.com saytının veb-redaktoru Xalid Kazımlı, redaktor Elşad Məmmədli və bu sətirlərin müəllifi iştirak edirdi. Söhbətin birinci hissəsini təqdim edirik.**

R.Arifoğlu qonağı salamladı:

***- Siz yaxın zamanlara qədər “Yeni Müsavat”ı boykot kampaniyasına qoşulmuşdunuz. Bu məsələni oxucular üçün açarsızmı? Bu boykot AXCP-nin rəsmi qərarı idi?***

- Bununla bağlı imzalanmış sənədimiz yox idi, ancaq qeyri-rəsmi belə bir qadağa qoyulmuşdu. Qadağa yalnız sizin qəzetlə bağlı deyildi. AXCP Rəyasət Heyəti belə bir qərar qəbul etmişdi ki, “Azadlıq” qəzetindən, sədrə yaxın və az-çox loyal hesab elədiyimiz media orqanlarından başqa heç bir KİV-ə açıqlama, müsahibə verilməsin.

***- Bizim üçün də bu, çox təəccüblüdür. Hesab edirik ki, yetərincə antidemokratik addımdır, üstəlik qanunlara ziddir.***

- Təbii, ziddir. Siyasətçilərin söz, ifadə azadlığının məhdudlaşdırılması döyüşçünün əlindən silahını almaq kimidir. Partiyada da bunu birmənalı qarşılamırdılar. Təbii, qərardan ən çox narazı qalanlar mediaya ən çox danışanlar idi. Ancaq heç kim bunu açıq şəkildə dilinə gətirmək istəmirdi. AXCP rəhbərliyi içərisində ən çox mediaya danışan mən idim, ancaq məsələnin kəskinliyini görüb mən də əməkdaşlığı dayandırmalı oldum. Çünki üzərimə çox gəlirdilər.

***- Sizin kimi bir insan niyə bu qədər çox qaldı AXCP-də? Sizi tanıyanların, siyasi prosesləri yaxından müşahidə edənlərin belə bir sualı var: səbəb nə idi?***

- Açığı, düşünürdüm ki, partiyaya gəlmək və getmək yaxşı qarşılanmır. Bu bizim mental xüsusiyyətimizdir. Bir çox illər özümü buna qurban verməli oldum.

***- Neçə il qaldız partiyada?***

- 2009-dan AXCP-dəyəm.

***- Yetərincə uzun zamandır.***

- Bəli. Partiyada olarkən ümid edirdim ki, yenilik üçün bir şans yaranacaq. Ancaq son zamanlar AXCP-də avtoritarizmin daha da gücləndiyinin şahidi oldum. Bir ara partiyada demokratik ab-hava yaranmaq üzrə idi. Çünki Rəyasət Heyətindəki bir sıra insanlar da durumdan narazı idilər. Çoxları hər dəfə eyni mövzuların müzakirəyə çıxarılmasından, heç bir nəticəyə nail olunmamasından bezmişdi. Balaca bir cücərti var idi, ancaq onu sədr məhv etdi.

***- Bu demokratiya ab-havası nə zaman yaranmışdı?***

- 2010-cu ilin parlament seçkilərindən sonra durum bir qədər dəyişmiş, yenilənmə şansı yaranmışdı. Sonradan sədr bu imkanları məhv etdi. Mən səfirlərlə görüşürdüm, hətta Ankarada Azərbaycanda akkreditasiya olunan səfirlərlə danışıqlarımız olurdu. Bir gün Əli Kərimli məndən soruşdu ki, səfirlərlə görüşməkdə məqsədin nədir? Mən o zaman dərsimi aldım. Sədr mənə dedi ki, bundan sonra səfirlərlə görüşməyi sənə qadağan edirəm. Doğrusu, bir neçə gün özümə gələ bilmədim. Bunu Rəyasət Heyətinin bir neçə üzvü ilə paylaşanda, onlar şok yaşadılar. Hətta bəziləri mənə inanmamışdı.

***- Bu, yaxın zamanlarda baş vermişdi?***

- Bu söhbət 2010-cu ildə olub. Axır zamanlarda isə bir neçə dəfə təzələnib. Bundan başqa “Azadlıq” qəzetində də mənə başqalarına yaradılan şərait yaradılmırdı. Qəzetdə şəxsi istəyimlə, təşəbbüslərimlə görünə bilirdim. Son bir ayda isə qəzet mənə münasibətdə müəyyən qədər istiləşmişdi. AXCP-yə can-başla qulluq edirdim, heç bir təmənna gözləmirdim. Düşünürdüm ki, göstərdiyim fəaliyyət “cəbhəçilər” üçün də, cəmiyyət üçün də xeyirlidir. Sonda da mənə deyildi ki, səfirlərlə görüşmə...



**“Bir gün Əli Kərimli məndən soruşdu ki, səfirlərlə görüşməkdə məqsədin nədir? Sədr deyirdi ki, səfirlərlə ancaq prezidentlər və partiya sədrləri təkbətək görüşə bilər”**

***- Sizin səfirlərlə görüşünüzdə Əli Kərimlini narahat edən məqam nə idi?***

- “Səfirlərlə ancaq prezidentlər və partiya sədrləri görüşə bilər”. Bu cümlə Əli bəyə məxsusdur.

***- O qürur duymurdu ki, AXCP sədrinin müavini səfirlərlə görüşür, onu qəbul edirlər?***

- Xeyr. Əfsuslar olsun ki, duymurdu. Sizə bir məlumatı da deyim. İlk dəfə İctimai Palata müstəvisində mən təklif verdim ki, rəhbərlikdə təmsil olunan şəxslərlə bütün səfirlərin görüş keçirilsin. Razılıq oldu və mən belə bir görüş təşkil etdim. Ancaq görüş yaxınlaşanda Əli Kərimli mənə bildirdi ki, sənin orda iştirakın məsləhət deyil, gəlmə. Düşündüm ki, sədr görüşə İsa Qəmbərlə bərabər gedəcək. Ancaq sonradan öyrəndim ki, Gülağa Aslanlı da orda olub. Əli bəydən soruşdum ki, bəs, söhbət məxfi idisə, necə oldu Gülağa Aslanlı o görüşə gedə bildi? Sözündən belə çıxdı ki, hətta İsa Qəmbər də mənim gəlməyimi istəmirmiş. Buna inanmadım. İsa Qəmbər özü də bu məsələyə aydınlıq gətirə bilər. İndiyə qədər yalnız AXCP-nin yox, bütün Azərbaycan müxalifətinin mövqeyini müdafiə etmişəm. İngilis dilində hazırladığım bülletenlər, yazılar ümumilikdə müxalifətin mövqeyini ifadə edib. Diplomatik nümayəndəliklər də mənə bildirirdilər ki, Azərbaycan müxalifətinin sözçüsü sənsən. Mənim bu illərdə müxalifət adına yazdıqlarımı bir yerə toplasaq, 5 cildlik əsər yaranar. İsa bəy də əminəm ki, mənim müxalifət üçün gördüyüm işlərin fərqində idi.

***- “Azadlıq” sizə niyə yer ayırmır?***

- “Azadlıq” qəzetində bilirsizmi daha çox kimlərə yer ayrılır? Əli Kərimli, iki nöqtə və dırnaq içində ondan bir sitat yazanlara. Bunu gündə bir neçə dəfə etmək lazımdır. Bundan başqa, sədri təmənnasız tərifləyənlərə, boyun əyənlərə və ona heç bir zaman etiraz etməyənlərə.

**“Bir ara partiyada demokratik ab-hava yaranmaq üzrə idi. Çünki Rəyasət Heyətindəki bir sıra insanlar da durumdan narazı idilər. Çoxları hər dəfə eyni mövzuların müzakirəyə çıxarılmasından, heç bir nəticəyə nail olunmamasından bezmişdi. Balaca bir cücərti var idi, ancaq onu sədr məhv etdi”**

***- Facebookda bəyənmək, “feys” dili ilə desək, “layk” etmək də bura daxildimi?***

- Əlbəttə.

***- Bunları partiya üzvlərinə xüsusi olaraqmı tapşırırdılar?***

- Facebook-da “like” eləmək AXCP-nin qəbul edilmiş siyasətidir.

***- Yeri gəlmişkən, bir məsələni dəqiqləşdirim, “cəbhəçi virtuallar” bəzən bir adamın üzərinə düşürlər, məsələn, indi hədəfdə sizsiniz, bu da tapşırıqlamı olur?***

- Təbii.

***- Yəni Əli Kərimli belə tapşırıqları şəxsən verir?***

- Əlbəttə verir. Mən bu fəaliyyətdən iyrənirdim. Bu cür “layk” xəstəliyinə tutulma, insanlara yalnız “layk” və paylaşmalarına görə qiymət verilməsi, virtual aləmdəki cəbhəçilərin kiminsə üzərinə göndərilməsi ikrah hissi oyadır.

***- Bu fikirlərinizi kiminləsə paylaşırdınızmı?***

- Dəfələrlə keçmiş partiyadaşlarıma bu haqda danışmışam, partiya içərisində yetərincə böyük bir kəsimlə müzakirələrimiz olub.

***- Sizə haqq verən yox idimi?***

- Rəhbərlikdə də, sıravi üzvlər arasında da mənim fikirlərimi bölüşənlər var idi. Əminəm ki, onlar bu gün də həmin mövqelərində qalırlar. AXCP-də Əli Kərimlinin facebookla bağlı göstərişlərini kimin yerinə yetirməsini sosial şəbəkədə qısa gəzişmələr edib görmək mümkündür. Burada xoşagəlməz daha bir hal var. YAP-ın belə bir xüsusiyyəti var - kimisə vurmaq lazım olanda hamı əlini daşın altına qoymalıdır, yəni hamı söyməlidir, o adamla hamı düşmən olmalıdır. Bu xüsusiyyət eynən AXCP-də tətbiq olunur. Heç şübhə etmirəm ki, bu gün AXCP-də məni söymək kampaniyasına qoşulmayanlara qarşı böyük basqı var. Tənqid etməyənlər haqqında deyilir ki, bu adamlar kampaniyaya qoşulmur, özlərini “yaxşı adam” kimi saxlamaq istəyir, həm o tərəfdə, həm bu tərəfdə olmaq istəyir, ancaq bu, mümkün deyil. Bu, hətta bolşevik təfəkkürünü də üstələyən bir təfəkkürdür. İnsanın iradəsini bu şəkildə zorlamaq siyasətçiyə yaraşmaz.

***- İstefadan sonra Əli Kərimli ilə danışmısınızmı?***

- Biz görüşdük - məni qərardan bir gün qabaq evinə dəvət eləmişdi. İçəridə məndən “Razı bəy, nə ilə məşğulsuz” soruşanda artıq onun mimikasından başa düşdüm ki, mənimlə bağlı qərar verilib. Onu da deyim ki, 2012-ci ilin sonlarından biz Əli Kərimli ilə üzbəüz söhbət etməmişdik. 2013-cü ildə bir dəfə görüşmək üçün təşəbbüs etdim, görüşmədi.

***- Siz 2 ildir sədr müavini olaraq sədrlə təkbətək görüşə bilmirsiz?***

- Təkbətək yox. Yalnız toplantılarda, məsələn, Rəyasət Heyətinin toplantılarında onu kənara çəkib nəsə deyə bilərdim, dəfələrlə belə də olub. Ancaq konkret bir məkanda - onlarda, bizdə, ya da başqa bir yerdə təkbətək görüşməmişik. Qabaqlar mən görüşlərimlə bağlı ona bilgi verirdim, məsələn, əvvəlcədən yazırdım ki, filan vaxt filankəslə görüşüm olacaq. Sonra sədrin mənə qarşı qısqanclıqlarını görüb bunu etmədim. Axırıncı söhbətimizdə o, bunu mənə dedi. Dedi ki, səndən narazılıqlarımdan biri səfirlərlə görüşən zaman məni xəbərdar etməməyindir, sən orda hansısa siyasət qurursan, mənə qarşı işləyirsən. Mənə dedi ki, səni həmişə sadəlövh, avam kimi tanımışam, ancaq sənə layiq olduğun qiyməti verməliyəm - sən məni inandıra bilmisən. Bu, birinci irad. İkinci dedi ki, sən partiyada insanlarla danışıb mənim siyasətimi tənqid etmisən.

***- Edirdinizmi?***

- Cəbhəçilərin də hamısı şahiddir, Allah da şahiddir, mən birbaşa heç bir zaman onun əleyhinə təbliğat aparmamışam. Əksinə, mən bilirdim ki, ona xəbər çatdıran insanlar ola bilər, ona görə yetərincə korrekt olmağa çalışırdım. Özü də mənimlə görüşdə bunu dedi ki, o qədər korrekt davranmısan, səni partiyadan çıxarmağa gərəkçə tapa bilmirdim. Belə çıxır, mənə qarşı kompromat toplamaq üçün Əli Kərimli neçə illər çalışıb. Mən ona dedim ki, düşünməyin mən bilərəkdən belə korrekt davranmışam, bu, mənim xasiyyətimdən, aldığım tərbiyədən irəli gəlir. Mən beləyəm.

***- Üçüncü arqumenti nə oldu?***

- Sədr dedi ki, sənin hakimiyyətdə müəyyən dostların var, onlarla görüşürsən, danışırsan, sənə qarşı müəyyən münasibətlər formalaşır. Dördüncü də, niyə 2 aydır facebook-da fəalsan, statuslar yazırsan, onları paylaşırlar, niyə bu qədər qabağa çıxmısan?

***- Narahatdır yəni...***

- Açığı, mən bunu bilirdim. Bilirdim ki, Əli Kərimli mənim “layk”larımı sayır. O, baxırdı ki, statuslarımı bəyənənlərdən neçəsi partiya içərisindən, neçəsi kənardandır.

***- Razi bəy, partiyadan çıxarılma səbəbləri sıralamasında üçüncü məsələyə qayıtmaq istəyirəm. Sizin hakimiyyət nümayəndələri ilə görüşləriniz nə qədər əsaslı ittihamdır?***

- Mən təbiətcə mədəni insanam. AXCP-yə gələndə artıq 92 ölkədə olmuşdum. Xaricdə təhsil almışam. Hər bir zaman xaricdə də, Azərbaycanda da mənim yaxşı dostlarım olub. Dostluğu çox dərin qiymətləndirən insanam. AXCP-yə gələndən sonra bir çox dostlarım məndən üz döndərməli oldular. Hakimiyyətin yanaşmasında da bir fərqlilik yoxdur axı... Hakimiyyət müxalifətlə görüşən üzvlərinə deyir ki, sən müxalifətə satılmısan. Mən də korrekt davranaraq çalışırdım onlarla görüşməyəm. Xeyirdə-şərdə ayaqüstü əl verib salamlaşmışıq, başqa heç nə. Hətta səfirliklərdə onlar qəbullara gələndə mən onlardan uzaq gəzirdim.

***- Bu sizin tələbə yoldaşlarınıza da aiddir?***

- Bəli. Mənimlə bir yerdə xaricdə oxuyub bu gün yüksək vəzifə tutan insanlar var. Mən onları düşmən elan eləməliyəm? Bu insanlar siyasətdən tamamilə uzaq adamlardırlar - onlar nə indiyə qədər müxalifəti söyüb, nə tənqid edib, nə də ümumiyyətlə bu düşərgədə nələrin baş verdiyindən xəbərdardırlar. Bunlar bəhanələrdir... Hansı hərəkətim, hansı statusum, hansı xidmətim göstərir ki, hakimiyyətə satılmışam? Ümumiyyətlə mən hakimiyyətə satılmaq terminini qəbul eləmirəm. Əfsuslar olsun, AXCP sədri Azərbaycanda klassik siyasəti məhv elədi. Azərbaycanda siyasət yoxdur, hər bir kəs siyasətlə məşğul ola bilmir. Çünki Əli Kərimli sanki bir “tənzimləyici” katalizatordu, filtrdir. Hər kəs Əli Kərimlinin filtrindən keçməlidir - keçən müxalifətdir, keçməyən müxalifət deyil? Bu durumun günahkarları içərisində özümü də görürəm. Geniş mənada isə bütün müxalifətin bunda suçu var. İnsanlar etiraz səslərini ucaltmalı idilər. Nəyə görə hamı onun filtrindən keçməlidir? Nəyə görə Milli Şuranın hörmətli üzvləri Əli Kərimlinin xətrinə dəyər deyə, deyək ki, “Yeni Müsavat”a, APA-ya danışmırlar, addımlarını onun istəklərinə uyğunlaşdırırlar? Mən bu gün bilirəm ki, hansı media kimə daha yaxın ola bilər, yaxud kimdə asılıdır. Məgər “Azadlıq” qəzeti Əli Kərimlinin senzurasından keçməyən hansısa yazını dərc edə bilər? Əlbəttə yox.

***- Bu gerçəkdirmi?***

***(ardı gələn sayımızda)***

**P.S.** *Razi Nurullayev bu gün mətbuat konfransı keçirəcək. Söhbət zamanı o, bir sıra məqamlara aydınlıq gətirsə də, mətbuat konfransında deyəcəyi fikirlərin hamısını açmadı. Sadəcə onu dedi ki, danışdıqları böyük bir skandal yarada bilər.*

❑ **Hazırladı: Aygün MURADXANLI**

**“Əli bəydən soruşdum ki, bəs, söhbət məxfi idisə, necə oldu Gülağa Aslanlı o görüşə gedə bildi? Sözündən belə çıxdı ki, hətta İsa Qəmbər də mənim gəlməyimi istəmirmiş”**





**“Azadlıq” qəzetində bilirsizmi daha çox kimlərə yer ayrılır? “Əli Kərimli, iki nöqtə” və dırnaq içində ondan bir sitat yazanlara. Bunu gündə bir neçə dəfə etmək lazımdır. Bundan başqa, sədri təmənnasız tərifləyənlərə, boyun əyənlərə və ona heç bir zaman etiraz etməyənlərə”**

# Psixoloji inflyasiya...



Hüseynbala SƏLİMOV

**Bu qarlı-şaxtalı, soyuq günlərdə azərbaycanlılar üçün əsl bəd xəbər bəlkə də manatın rəsmi kursunun dəyişdirilməsi haqqında xəbər oldu. Yalnız qar və şaxta bu xəbərin şokunu bir qədər azaltdı, soyuq havalar ucbatından adamlar alış-verişə çıxa bilmədilər və inflyasiyanın ilk böyük həmləsini öz üzərlərində hiss etmədilər...**

Amma soyuq da əbədi deyil. Onun da bir-iki günə çəkiləcəyi bildirilmişdi və artıq günorta saatlarında belə xəbərlər yayıldı ki, bəzi mağazalarda malların satışını müvəqqəti dayandırıblar ki, qiymətlər “bəlli” olsun...

Elə bu faktordan görünür ki, inflyasiya bir neçə səbəbdən yaranır. Bunun bir səbəbi də psixoloji səbəblərdir-alıcılar və satıcılar arasında panika yaranır və bu da özünü onda göstərir ki, qısa müddətə ya qiymətlər fantastik dərəcədə sıçrayır, ya da ki, vitrinlər, piştaxtalar boşalır...

Təbii ki, nə kursun dəyişməsi, nə də növbəti bahalıq dalğasının gəlməsi elə də qeyri-adi hadisə deyil. Bu, əvvəlcədən gözlənirdi... Sadəcə, hökumətin gözündə bu vaxta qədər toplanmış valyuta ehtiyatı o qədər böyük görünürdü ki, onlar belə halları az qala istisna edirdilər...

Amma ya vəlvələdən, ya da zəlzələdən, bu, artıq baş verib. İndi əsas iqtisadi “oyun” başlayır. Bu oyunda ya bazar, ya da dövlət, ya da ki, onlar birlikdə hər şeyi təzədən tənzimləməlidirlər...

Demirik ki, tənzimlənmə olmayacaq. Olacaq. Sadəcə, bir az vaxt lazımdır. Bu prosesdə ən ağrılı məqam odur ki, istehlakçı adlanan təbəqənin gəlirləri olduqca aşağı düşəcək. Təbii, burada başqa bir faktor da var. Bu da neftin və qazın qiymətidir...

Ona görə də indiki inflyasiyanı böyük uğurla “Putinin inflyasiyası” adlandırmaq olar... Əgər bu gün V.Putin geri çəkilsə, Ukraynadan əlini çəksə neftin və qazın qiyməti çox tez bir zamanda yenə də qalxa bilər...

Sözsüz ki, bu, ölkə içində qərarlaşmış qiymətlərə artıq təsir etməyəcək, ona görə ki, bir dəfə qalxan qiymət bir daha enmir, onu yalnız bircə yolla “endirmək” olar- milli valyutanın denominasiyası yolu ilə. Elə ona görə də qiymətlər qalacaq, sadəcə, vətəndaşların və dövlətin gəlirləri artacaq, bu isə ona gətirib çıxaracaq ki, əhali qiymətlərin ağırlığından bir qədər qurtulacaq...

Nə isə... Bunlar ehtimallar və ssenarilərdir. Böyük V.Gete isə deyirdi ki, nəzəriyyələr quru, həyat isə həmişə yam-yaşıldır. Ona görə də bir az gözləmək lazım gələcək, ən çətini birinci həftə və yaxud da ki, birinci ay olacaq... Sonra şok ən azı psixoloji cəhətdən çəkiləcək - insanlar daha heyrətlənməyəcəklər, bəli, “filan qiymətə də filan şey olar?” - deməyəcəklər, onlar sadəcə, mızıldanmağa və deyinməyə başlayacaqlar...

Bütün bu deyinmələr və mızıldanmalar isə nəyə gətirib çıxaracaq, bunu demək artıq çətindir. Bəli, elə ola bilər ki, ciddi sosial narazılıq yaranmasın. Bir neçə il bundan əvvəl böyük bahalaşma hiss olunacaq sosial etirazlara gətirib çıxarmadı. Bəlkə bu dəfə də belə olacaq? Kim bilir?..

Əsas odur ki, prosesdən düzgün nəticə çıxarılsın. Bu proseslərin əsas nəticəsi nədir? Aydın oldu ki, qeyri-neft sektoru haqqında az qala zildən oxunan siyasi nəğmələrə rəğmən ölkə iqtisadiyyatı çox ciddi şəkildə neftdən asılıdır...

Bizə bir məsələ də aydın deyil. Deyirlər ki, milli valyutanın qiymətini sabit saxlamaq üçün dövlət hər il bir-iki milyard dollarlıq vəsait xərcləyirmiş. Daha yaxşı olmazdımı ki, bu vəsaitin heç olmasa, yarısı iqtisadiyyata yönəldilsin?

Bəlkə bu vəsait qeyri-neft sektorunun inkişafına yönəldilsəydi bir səmərəsi ola bilərdi?..

Hər halda, hökumət bu haqda düşünməlidir. Hətta sovet dövründə iqtisadi inkişafın iki yolu göstərilirdi: intensiv və ekstensiv. İntensiv inkişaf xammalın istismarına yönələn, sırf xammal üzərində qurulan inkişaf idi...

İndi bütün bəlağətli nitqlərə rəğmən Azərbaycan iqtisadiyyatı da intensiv inkişaf-xammal satışı üzərində qurulan iqtisadiyyatdır. Bu iqtisadiyyatın tutaq ki, Gürcüstan iqtisadiyyatından fərqi də neftdən və qazdan gələn gəlirlər idi...

Elə olsun ki, ikinci, bu dəfə artıq professional şok yaşamayaq. Birdən məlum olar ki, bu illər ərzində bizim iqtisadiyyatımız Gürcüstan iqtisadiyyatından bir o qədər də irəli getməyib.

Bunu biləndə biz nə edərik? Dərhal ürəklərimizi tutmarıqmı? Təbii ki, əgər bu ölkənin taleyinin həqiqətən də fərqindəyiksə...

# "Lamiyə işi"ndə növbəti şok gəlişmə

**"Lamiyə işi" getdikcə dərinləşir. Aslan Aslanov, onun Ədliyyə Nazirliyinin İstintaq Şöbəsində müstəntiq vəzifəsində işləyən Turqay Aslanov Lamiyə Quliyeva ilə onun keçmiş nişanlısı Vüqar Əliyevin aqibətini yaşaya bilərlər. Hazırkı məqamda bu, ölkədə yaşanan manat şokunun neytrallaşdırılmasının ən ideal yolu ola bilər. Şəmkirin keçmiş icra başçısı, sonradan kənd təsərrüfatı nazirinin müavini olmuş Aslan Aslanovun istintaqa çağırılmasına da real əsaslar var. Gələn məlumatlar bunu deməyə əsas verir.**



### Lamiyəni buraxdılar, Turqay Aslanovu tutdular!

Fevralın 20-də, Lamiyə Quliyeva Bakı Apelyasiya Məhkəməsində azad edildikdən bir neçə saat sonra Aslan Aslanovun oğlu Turqay Aslanov Bakıda saxlanıb. Oğul Aslanovu gecə saat 1 radələrində Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları Nəsimi rayonu ərazisində kobud qayda pozuntusu törədərkən saxlayıblar. 300 min dollar qiyməti olan "Bentley" markalı maşının sükanı arxasında sərxoş olan T.Aslanov özünü itirmədən əlini telefona atıb. Lakin ona adamları narahat etməməyi məsləhət bilibilər. AzNews.az-a daxil olan məlumata görə, Az 10 DO 007 dövlət nömrə nişanlı avtomobilin sərxoş sürücüsünün sənədləri yoxlanıb. Məlum olub ki, müstəntiq vəzifəsi daşıyan T.Aslanovun nəqliyyat vasitəsinə aid sənədləri qaydasında deyil. Buna görə də T.Aslanovu maşından düşürüblər, avtomobilini 3-cü mikrorayonda yerləşən cərimə meydançasına aparıblar. Həmin avtomobil 2008-2013-cü illərdə Turqay Aslanovun adına olub. 2013-cü ildə isə Valeh Ramazan oğlu Allahverdiyevə etibarnamə verilib. Amma faktiki olaraq nəqliyyat vasitəsi daim Turqay Aslanov tərəfindən idarə olunub. Müstəntiqin idarə etdiyi ağ rəngli "Bentley" Bakıda barmaqla sayılacaq qədər məhdud saydadır. Bunu şərtləndirən nəqliyyat vasitəsinin bahalığıdır. Ən əsası isə prezidentin məmurlara xəbərdarlığından sonra bir çoxları qiyməti bir neçə yüz min manatı aşan nəqliyyat vasitələrindən daha ucuz markalı maşınlara mindilər. Lakin Aslanovun oğlu prezidentin iradından sonra da 2008-ci ildən sürdüyü maşını dəyişməyib...

Hakimiyyətdəki mənbə "Yeni Müsavat"a deyib ki, Aslanovların həbsi həftə içi baş tuta bilər. Artıq onlara qarşı ittiham da hazırdır. L.Quliyevanın mətbuatdakı çıxışları ifadə şəklinə salınması kifayətdir ki, Aslanovlar saxlanılsın.

Qeyd edək ki, "Lamiyə işi" yenicə ölkə mediasının gündəminə gəldiyi günlərdə A.Aslanovun şəhərin mərkəzindəki "milyonçular məhləsin"dəki villasında axtarış aparılması xəbəri yayıldı. Bu günədək xəbər təkzib olunmayıb. Üstəlik Aslan Aslanovun ölkədən çıxışına da qeyri-rəsmi qadağa haqda məlumat da var. Əgər Aslanov ölkədən çıxmaq istəsə, onu sərhəddən geri qaytaracaqlar.

# Aslan Aslanovun həbsi üçün ilk addım atıldı

## Eks-nazir müavininin müstəntiq oğlunun "toxunulmazlığı" götürüldü; Turqay Aslanovu 300 minlik "Bentley"dən düşürüb maşınını cərimə meydançasına apardılar; Lamiyə Quliyeva "Yeni Müsavat"a müsahibə verdi: "Aslanovlar həbs edilməlidir, başıma bir iş gəlsə məsuliyyəti onlar daşıyır"

***

Artıq Lamiyə Quliyeva azaddır. 12 illik həbs həyatında başına gələnləri də hər kəsə danışır. "Yeni Müsavat"a müsahibəsində də bunu deyib. Qeyd edib ki, sosial şəbəkələr vasitəsi ilə üzləşdikləri haqda maraqlanan hər kəsi məlumatlandıracaq:

- Öz internet səhifəm olacaq. Facebook profili açıb mənə azadlığa çıxmaq üçün kömək etmiş insanlarla əlaqə yaradacağam. Başıma gələnləri yazacağam.

*- 2003-cü ildən başlayacaqsız?*

- Bəli. Həmin gün orada nə baş verib, yazacağam. Biz həmin gün üçlükdə görüşmüşdük. Ruslan elədiyini etiraf etdi, Vüqarla sözləri düşdü. Öldürdük.

*- Ruslanı kim vurmuşdu?*

- Mən bu barədə danışmaq istəmirəm.

*- İlk iki zərbəni siz vurmuşduz?*

- Hə, mən vurmuşdum. Namusuma toxunmuşdu, mən də vurmuşdum. Allah Vüqara da kömək olsun, tezliklə azad edilsin. Mən ifadəmi vermişəm. Ona görə də uzun-uzadı danışmaq istəmirəm. Olan olub, keçən keçib. İstədiyim odur ki, Vüqar da tezliklə azadlığa qovuşsun. Ailəsi var, cavandır.

*- Vüqarla görüşə gedəcəksiz?*

- İnşallah azad olunar, gedib bir dəfə görüşərəm. Onun artıq ailəsi var. O, özünə başqa bir həyat, mən da ayrı həyat seçmişəm. Ona azadlıq arzulayıram. Onun valideynləri də mənim anam kimi 12 ildir ki, əzab-əziyyətin içindədir. Bir ölüm işinə görə bizə həddən artıq ağır cəza veriblər. Həmin qətl namus məsələsinə görə olub. İnanıram ki, Vüqar üçün də ədalətli bir qərar olacaq. Mən 12 ildən sonra nəhayət ki, siz mətbuat nümayəndələrinin, ölkə rəhbərliyinin, baş prokuror Zakir Qaralovun sayəsində ədalətli qərarla azad edildim. Vüqar üçün də belə bir qərar inşallah olacaq. Mən buna inanıram. Lazım olan ifadəni aidiyyatı orqanlara vermişəm.

*- Bu yaxınlarda verdiyiniz ifadədən söhbət gedir?*

- Bu yaxında prokuror mənim işimi araşdıranda ifadəmi vermişəm. İnanıram ki, Vüqar üçün də yaxşı olacaq.

*- Hüquq müdafiəçisi kimi fəaliyyətə başlayacağınız haqda da məlumatlar var...*

- Belə bir fikrim yoxdur. Məni verilişlərə çağırırlar. İradə İsaq var, o, məni ATV-yə çağırdı. İmtina etdim. Mirşahinlə danışmaqdan da imtina etmişəm. Mən ədalətli, düzgün olanı yazan jurnalistlərin qarşısında baş əyirəm. Doğrunu yalan kimi təqdim etmək istəyənlərlə sadəcə danışmaq istəmirəm. Düşmənliyəm, bunu başa düşürəm ki, mənə qarşı hər vasitəyə əl atırlar.

*- Düşmənliyəm dediniz. Təhlükəsizliyinizin təmin olunması ilə bağlı hüquq mühafizə orqanlarına müraciət etmisinizmi və ya edəcəksinizmi?*

- Mənim başıma hər hansı bir iş gəlsə bunun birbaşa məsuliyyəti Aslan Aslanovun, onun oğlu Turqay Aslanovun, qardaşı Elbrus Aslanovun üzərindədir. Aslanovun mənə qarşı etdikləri hər kəsə bəllidir, ifadələrimdə də bunu demişəm. Mən ölkə başçısına, baş prokurora müraciət edirəm ki, özümün və ailəmin təhlükəsizliyinin təmini üçün göstəriş versinlər. Bu adamlardan hər bir şey gözləmək olar. 12 il ərzində başımıza olmazın müsibətlər açıblar. Aslanov 12 il ərzində mənə cinayət işlərini bir-birinin ardınca açdırıb, mənə qarşı saysız-hesabsız təxribatlara cəhdlər olub. 12 ilin 6 ilini mən karslarda keçirmişəm. Bəlkə də o, məni sərbəst buraxıb azad edilməyimi gözləsəydi, bu gün bu cür vəziyyət yaranmazdı. Əgər mənim başıma bir iş gəlsə, hamı bunu məhkəməsiz-sübutsuz Aslanovun törətdiyini deyəcək. Onun oğlu Ədliyyə Nazirliyinin müstəntiqidir. Mənə qarşı 2-ci cinayət işinin başlanmasında birbaşa onun rolu var.

*- Nə etmişdi?*

- 2-ci dəfə mənə iş verilsin deyə adi bir məsələni qabardıb işimin üstünə iş gəlməsinə nail oldu. Aslan Aslanov bizə ən müxtəlif yollarla xəbər çatdırırdı ki, o qızın ölümünü istəmirəm. Onu orada çürüdəcəyəm. Yəni cəzamı sonsuza qədər artıracaqdı. "Jenkalon" üstü açıq qəbiristanlıqdır. Orada diri ikən öləcəkdim. Məqsədi bu idi. Mətbuat barəmdə yazmasaydı, qərar verən insanlar bu məsələyə diqqət etməsəydi, yəqin ki, Aslanov istəyinə nail olacaqdı. Allaha şükür ki, yaxşı insanların sayəsində bu belə olmadı. Oğlu Ədliyyə Nazirliyində oturub Penitensiar Xidmətdəki dost-tanışına əmr verəcəkdi, onlar da evimi yıxa-yıxa gedəcəkdilər. Mən həqiqəti yazan hər bir jurnalistə təşəkkür edirəm.

*- Artıq azadlıqdasınız. Uşağın atası Elnur adlı məhkumdur?*

- Odur. Amma Elnur düzünü demir. Bizə şərait yaradıblar, görüşmüşük.

*- Pul qarşılığında?*

- Onları razı salmışdıq. Elnurun danışığı başdan ayağa səhvdir. Onu öyrədiblər. Özlərini qorumaq üçün onu səhv danışmağa məcbur edirlər. Camaat 5-10 min manat pul verib süni mayalanmaya gedir, amma övladı olmur. Bakı İstintaq Təcridxanasında bu necə ola bilər? Ora klinikadır? Mən süni mayalanma həkimi də deyiləm! Mən Elnurun danışığına qulaq asdım və sadəcə güldüm.

*- Oğlunuz böyüyür. O sizə gec-tez "atam kimdir" sualını verəcək. Nə deyəcəksiz?*

- Səhv danışan ata mənim uşağıma lazım deyil.

*- Elnur həbsdədir. Bunu nəzərə almırsız?*

- Alıram, amma səhv danışdığına görə mən onu qəbul etmirəm.

*- Uşağın adı ilə bağlı mətbuata açıqlamanız olub. Demisiniz ki, uşağın adını rəsmiləşdirməyə sizə imkan verilməyib. Niyə?*

- Uşaq həbsxanada dünyaya gəldi. Adını soruşdular. Dedim ki, uşağın adı Mədət olacaq. Familiyam Quliyevadır, adını da Mədət qoyduğumu dedim. Dedilər ki, olmaz. Mən də uşağın həbsxanada olduğunu əsas gətirib adının məhz Mədət yazılmasını tələb elədim. İmkan vermədilər. Onların sayəsində uşağım həbsxanada dünyaya gəlib, məni azad olunmağa qoymayıblar. Məni onlar həbsxanada ana olmağa məcbur etdilər. Azad olunmağımın qarşısını almasaydılar, mən həbsxanada ana olmazdım. Narazılıq yarandı, uşağa metrika vermədilər. Məni oradan çıxarmağa heç kimin gücü çatmırdı. Aslanın gücü qarşısında mənim oradan çıxmağım mümkünsüz görünürdü. Aslan söz işlətmişdi ki, mən ölsəm, yerdən qalxan Aslanlar o qızı orada çürüdəcək. Körpəm öz anasının əlindən tutub o bataqlıqdan, həbsxanadan azadlığa çıxardı. Mənə həbsdə uşağımın adını metrikaya yazmağa qoymadılar. O uşaq məni azadlığa çıxarıb. Adını Uğur yazdırdım. O, Aslanı yerində oturdub məni azadlığa çıxardı.

*- Siz azad edilən gün Aslan Aslanovun oğlunu saxlayıblar. Bu təsadüfdür yoxsa ilahi ədalətdir?*

- İnternetdə oxumuşam. O da qardaşının yolunu gedir. Ruslan Şəmkirdə polis, prokuror saymırdı. Maşınla haradan gəldi vururdu, keçirdi. Qız, gəlin bilmirdi, küçənin altını-üstünə çevirirdi. Camaat onun qorxusundan evinin qabağında yarım saat oturub təmiz hava ala bilmirdi. Vaxtilə Şəmkir Ruslanın qabağında dayana bilmirdi, indi də Turqayın qabağında Bakı dayana bilmir. Aslan Aslanovun əlindən Şəmkirdə kimsə obyekt aça bilmirdi. O dəqiqə haqq qoyurdu. O, Bakıya gedəndən camaat ağ günə çıxıb. Camaatdan aldığı pullardan oğlunun altına 300 minlik maşın alıb. Onu saxlamalıdırlar da, tutmalıdırlar da. İçkili maşın sürübsə, başqa necə olmalıdır? Allah böyükdür, axır ki, haqq-ədalət yerini tapır və tapacaq.

*- Məhbəsdə sizə qarşı təxribatlar baş tutduğunu ananız deyib. Nə edirdilər?*

- Məni elə şeylərin üstündə karsa salırdılar ki, başqa məhbuslara həmin hərəkətlərə görə söz belə demirdilər. Aslan, onun oğlu, qohumları mənə orada zülm verdiriblər. Adam nə qədər buz kimi karsera salınar, təhqir edilər? O qədər zülm edirdilər ki, özümü doğrayırdım. Cəzamı 17 il, ardınca da, 20 il elətdirdi. Oturub fikirləşdim ki, dözüb ayaqda qalacağam. Nəyəsə görə qalıb mübarizə aparmalıyam. Ana oldum ki, mübarizəmdə yanımda arxa-dayağım olsun. Məni həyata bağlayan bir övladım olsun. Buna görə ana oldum. O, mənə güc verdi. Məni heç kim qınamasın. Qınayanlar mənim yerimə özlərini qoysunlar, bir anlıq gözləri önünə yaşadıqlarımı gətirsinlər. 20 il həbs cəzası altında yatmışam. 20 il! Mən ölməmək üçün bu addımı atmışam. Bu mənim üçün çıxış yolu, həyata bağlanmaq stimulu oldu.

*- Siz həbsdə olarkən Penitensiar Xidmət məlumat yaymışdı ki, dünyaya övlad gətirəcəyiniz məlum olandan sonra sizə xüsusi qayğı və diqqət göstərilib. Bu xüsusi qayğı və diqqət nədə ifadə olunurdu?*

- Ana və uşaq otağına köçürmüşdülər. Məni tibb məntəqəsinə köçürməli idilər. Həkim nəzarəti altında qalmalı idim. Ana və uşaq otağında yatmağa normal şərait yox idi. Xahiş edirdim ki, mənə yatmağa normal şərait yaradın. Hər gün Penitensiar Xidmətdən gəlib sorğu-suala tuturdular. Anam 102-yə də zəng edib demişdi. Bundan sonra Penitensiar Xidmətdən Elşən müəllim gəldi, ona da mənə yatmağa şərait yaradılmadığını dedim. Xeyri olmadı. Etmirdilər. Etiraz edirdim, əhəmiyyət vermirdilər. 8 aylıq hamilə ola-ola məni karsa salıb 4 sutka orada saxladılar. 3 gün ac-susuz qaldım orada. Bu idi onların mənə qayğısı, diqqəti?! Sağ olsun Nərgiz xanım, o rəisə dedi ki, məni Müalicə Müəssisəsinə köçürmək lazımdır. Bundan sonra məni ora köçürdülər. 1 ay normal yaşayıb uşağı Bakıxanovdakı xəstəxanada dünyaya gətirdim.

*- Sizə normal qida verirdilər?*

- Məhkuma nə verəcəklər? Noxud supu, perlova, borş verirdilər.

*- Xörəklər ətli olurdu?*

- Hə. Toyuq əti verirdilər.

*- Ora gələn hüquq müdafiəçilərinə fikirlərinizi çatdıra bilirdiz?*

- Orada yaşayan insan hüquq müdafiəçisinə nə deyə bilər axı?

*- Nə baş verərdi?*

- Gəlirdilər, sözümüzü deyirdik. Amma nə faydası vardı ki? Guya sözümüzü gedib kimə lazımdır deyirdilər? Dəfələrlə mənə qarşı baş verənləri demişəm. Xeyri olmayıb. Mən azad edilməyimdə az da olsa rolu olan hər kəsə təşəkkür edirəm. Prezidentə, baş prokuror Zakir Qaralova, onun müavini Namiq Əsgərova təşəkkür edirəm. Mən Aslan Aslanovu Allaha tapşırmışam. O, mənim ailəmə verdiyi zülmlərə görə gec-tez ədalətli məhkəmənin qabağında dayanacaq.

*- Siz üzləşdiklərinizlə bağlı ifadə verəcəksiniz?*

- Verəcəyəm. O, etdiklərinə görə mütləq cavab verməlidir. O, vəzifəsindən, pulundan, əlaqələrindən istifadə edərək bizə etdiyi zülmlərə qarşı cavab verməlidir.

**❑ E.MƏMMƏDƏLİYEV**

**P.S** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 41 (6069) 24 fevral 2015

## Broyler toyuqlardan bəhs edən videonun gizlinləri üzə çıxdı



# Oliqarxların ət savaşı - özəl xəbər

### Son vaxtlar sosial şəbəkələrdə yayılan, sonradan peşəkar mediaya ayaq açan zərərli toyuqlar videosu barədə maraqlı məlumatlar əldə etmişik; bunun arxasında qırmızı ət bazarına nəzarət edən monopolistlərin dayandığı barədə iddialar var

**2015-ci ilin yanvar ayında Azərbaycana ət idxalı kəskin artıb. Dövlət Gömrük Komitəsinin rəsmi məlumatına görə, yanvar ayında ölkəmizə 1 milyon 967 min dollarlıq ət idxal olunub. Bu da 2014-cü ilin yanvar ayı ilə müqayisədə 4,2 dəfə və ya 1,5 milyon dollar çoxdur. 2014-cü ilin yanvar ayında ölkəmizə 468.94 min dollarlıq ət idxal olunmuşdu.**

Azərbaycana 2011-ci ilin yanvarında 1,291 milyon dollarlıq, 2012-ci ilin yanvarında 2,084 milyon dollarlıq, 2013-cü ilin yanvarında isə 920 min dollarlıq ət idxal olunmuşdu.

Yanvar ayında Azərbaycana kərə yağı idxalı 3 dəfəyə yaxın artıb. Əgər 2014-cü ilin yanvarında ölkəmizə 898,37 min dollarlıq kərə yağı idxal olunmuşdusa, bu ilin yanvarında idxalın həcmi 2 milyon 6560 min dollar təşkil etmişdir.

***

Bu rəsmi məlumatı yazının girişinə verməyimiz təsadüf deyil. Qırmızı ətin idxalının artmasının arxasında oliqarxların mövqe və informasiya savaşının dayandığı haqda məlumat əldə etmişik.

Etibarlılığına şübhə etmədiyimiz mənbənin iddiasına görə, son aylar davamlı olaraq broyler sənayesinin ictimai rəydə qınaq obyektinə çevrilməsi boşuna deyilmiş. Mənbə bildirir ki, broyler toyuqlarının zərərindən bəhs edən videonun sosial şəbəkələrdə yayılmasının, sonradan video-materialın peşəkar mediaya da ayaq açması qırmızı ət monopolistlərinin oyunudur. Xatırladaq ki, broyler toyuqlarının zərərləri haqda məlum video xeyli müddətdir ki, youtube, facebook və digər sosial şəbəkələrdə dolaşırdı. Son vaxtlar həmin videolar mətbuatın da diqqətini cəlb etdi. Bundan sonra Azərbaycanda fəaliyyət göstərən əksər qəzet və saytlar, hətta telekanallar broyler toyuqlarının zərəri haqda geniş materiallar verməyə başladı. Bu materiallarda həkim rəyi ən başda gəlir. Doktorlar bildirirlər ki, broyler toyuqları xərçəng yaradır, ağır xəstəliklərə səbəb olur və s. Bu informasiya məlum videonun müşayiəti ilə ictimai şüura yeridildikdən sonra broyler toyuqlarından kütləvi imtina baş verib. Nəticədə bazarda qırmızı ət önə keçib.

**Mənbəmiz bildirir ki, qırmızı ət monopolistləri vergi, gömrük və digər inzibati resurslardan yararlanmaqla onsuz da broyler təsərrüfatına ciddi problemlər yaradırlar, bir yandan da bu cür videolar bu sahəni az qala çökdürsün.** "Bir vaxtlar quş qripi kampaniyası broyler təsərrüfatına ciddi zərbələr vurdu, indi də toyuqların zərəri, onların iynə ilə şişirdilib satışa çıxarılmasından bəhs edən video-materiallarla bu sahəni birdəfəlik sıradan çıxarmağa çalışırlar" - deyə mənbə deyir. Onun sözlərinə görə, videoda bir qadın danışır ki, baxın, bir toyuğa 400 qram maye vurulur: "Hansı sahibkar özünün anti-reklamı ilə məşğul olar? Niyə kimsə öz təsərrüfatında gizli prosesi çəkib xalqa göstərsin. Bu, açıq-aşkar təxribatdır və ortada rəqib sahənin adamlarının maraqlarının dayanması şübhə doğurmur".

Ekspertlər bildirir ki, bazardan toyuq ətinin sıxışdırılması, qara PR-la broyler təsərrüfatının vurulması Azərbaycanda ət və ət məhsullarının sürətlə bahalaşmasına səbəb olacaq.

"Onsuz da son proseslər, yəni manatın dəyərdən düşməsi Azərbaycanda qiymət artımına səbəb olacaq. Yaxın günlərdə elə bir sahə olmayacaq ki, orda qiymət artmasın. Zatən son 3 gündə xeyli məhsulun satış qiymətində kəskin artım müşahidə olunur. Bu, ətin qiymətindən də yan keçməyəcək. Bir yandan da monopolistlər əllərində olan resurslardan istifadə edərək öz rəqiblərini süni şəkildə bazardan sıxışdırıb çıxarırlar. Bunun da nəticəsində qırmızı ət kəskin şəkildə bahalaşacaq. Bunun da ziyanı heç şübhəsiz sıravi insanlara dəyəcək" - deyə iqtisadçı ekspert Qadir İbrahimli mövzunu "Yeni Müsavat"a şərh edərkən bildirib. Q.İbrahimlinin sözlərinə görə, mətbuat bu cür qara PR kampaniyalarına diqqətli olmalı, yayılmış bu cür video materialların hansı məqsədlə ictimailəşdirilməsini saf-çürük edəndən sonra bunu tirajlamalıdır: "Guya qırmızı ət sənayesi yaxşı vəziyyətdədir ki? Xaricdən mənşəyi bəlli olmayan ət gərirlər, bilinmir nə ətidir. Bunu da restoranlara, dönərxanalara, digər iaşə obyektlərinə, hərbi hissələrə satırlar. Bilmirik nə yeyirik, hansı heyvanın ətini bizə təklif edirlər. Broyler də olsa ən azından bilirik ki, toyuq ətidi, amma qırmızı əti ayırd etmək çətindi, bəlkə də oliqarxlar bizə mal əti adı ilə eşşək əti yedirir, kim bilir..."

**Q.İbrahimli deyib ki, broyler şirkətlərini müdafiə etmək fikri yoxdur:** "Bu sahədə də çatışmazlıq var. Bu da qanunla, müəyyən qaydalarla tənzimlənməlidir. Daha monopolistlərin öz bizneslərini çiçəkləndirmələri üçün qara texnologiyalardan istifadə etmələri yolverilməzdir. Rəqabət mühiti yaradılmalı, kim davam gətirə bilirsə bazarda o qalmalıdır. Süni vasitələr sonda xalqın cibinə və canına ziyan vurur".

Mövzuya qayıdacağıq.

❑ **Aslan Araz**

## Yetimin papağını qaytaracaqlarmı?



**Samir SARI**

**Siz heç yetimin papağının əlindən alınmasına, qaytarılmasını və axırda onun necə sevindiyini görmüsünüz? Mən təxminən 10 il öncə "Gənclik" metrostansiyasının tunelində şəxsən görmüşəm. Hətta bu barədə köşə də yazmışam. İndi qısa şəkildə o olayı yenidən yazım, sonra mətləbə keçərəm.**

Deməli, hadisə belə oldu. "Gənclik"də qatar gözləyirdim. Bir də gördüm ki, sol tərəfimdən şikayət, yalvarış səsləri gəlir. Baxdım ki, təxminən 25 yaşlı, hündürboy, sarışın bir oğlan dövrələmə duran və hırıldaşan 20-21 yaşlı gənclərə yalvarır, "noolar, papağımı qaytarın". Onlar da papağı bir-birinə atır, məzələnirlər. Oğlanlar güman ki, idman akademiyasının tələbələriydi. Hündürboy oğlan isə heç de yetim deyildi, amma psixi xəstə olduğu bilinirdi. Arada o, başını sütuna söykəyərək ağlamağa başladı. Mən müdaxilə etmək, bunun müqabilində döyülməyi göz altına alaraq xəstə oğlana qahmar çıxmaq istəyirdim ki, gənclərdən biri onun papağını özünə qaytardı. Oğlan dərhal, bir saniyənin içində ağlamağını kəsdi (deyəsən, artistlik edirmiş) və gülümsər sifətlə papağını qaytaranlara ürəkdən təşəkkür etdi.

Bu hadisə yadıma bu gün ona görə düşdü ki, manatın bir gecədə 33 faiz bahalaşmasından iki gün sonra 3 faiz ucuzlaşmasına görə riqqətə gələn oğlanlar var və onlar "Manat bahalaşdı, dollar ucuzlaşdı" kimi başlıqlar verir, yarım saatdan bir xəbəri yeniləyir, anti-ajiotaj, anti-panika, anti-təlaş yaratmağa çalışırlar.

Əlbəttə, bu, saf niyyətdən, xoş məramdan irəli gəlir. Həmkarlar istəyirlər ki, maliyyə bazarında sabitlik yaransın, xəlayiqi sarmış əndişə və narazılıq daha da yoğunlaşmasın.

Amma yaxşı olardı ki, manatın bahalaşması gerçəkdən də üzüyuxarı, dolları ucuzlaşması isə üzüaşağı meyllənəydi. Ortada bir şey olmayandan sonra hamımız, bütün media əhli sözləşərək "Manat avrodan baha oldu, dollar su qiymətinə düşdü" kimi başlıqlar verə bilərik, amma əlindəki valyutasını dəyişmək üçün banklara axışan camaat adamın yeddi arxa dönəninə söyməzmi? Söyər. Hazırda camaat çox söyüşcüldür.

Bəziləri deyir ki, onlar bunu İP (mediada belə bir tuği-lənət var) üçün, yəni oxucu sayının artmasından ötrü edirlər. Çünki hazırda bu tip xəbərlər çox oxunur. Xalq kompüterin qabağında oturub maliyyə cəbhəsindən qaynar xəbərlər gözləyir. Bu üzdən dollar və manatın güləşməsinə dair isti xəbərlər verərək, çoxlu İP qazanmaq mümkündür. Ancaq xəbərlərin yanlış və ya qeyri-dürüst olacağı təqdirdə ikiqat artıq söyüş qazanmaq da qaçılmazdır.

İndi təsəvvür edirəm, dünənə qədər 78 qəpik olan, bu gün 1 manat 5 qəpikdən gedən dollar sabah 88 qəpik olsa, biz bu yeniliyi metroda papağı özünə qaytarılan oğlan kimi qarşılayacaq, böyük ruh yüksəkliyi ilə bunu dövlətin sadə xalqa atalıq qayğısı kimi qələmə verəcəyik.

Bəs aradakı 10 qəpik ziyan? O cəhənnəmə olsun. Əsas məsələ atalıq qayğısıdır, iqtisadi inkişaf tempidir, əhalinin rifah halının qayğısına qalmaqdır, 10 qəpikdən bir şey çıxmaz.

Amma olmur, biz bir az küyçü camaat olduğumuzdan əlində əmtəəsi olan hər bir şəxs hesab edir ki, malının qiymətini qaldırmasa, müflis olacaq.

Yaşıl dolların qiyməti qalxıb deyə kəndlərdə sarı samanın, qırmızı ətin, narıncı portağalın, sarı kökün, ağ almanın, yaşıl ispanağın qiyməti niyə qalxmalıdır ki? Bu mallar dollarla başa gəlir?

Sovet vaxtı belə şeyin adına möhtəkirlik deyirdilər və bu cür edənləri tutub cəzalandırırdılar. O hökumətin bircə şeyi yaxşıydı ki, qəfildən varlanmaq, başqalarını talamaq istəyənləri tutub ağzıbirə salırdı.

Ancaq indi elə deyil, vəzifəsindən istifadə edib bir gecədə varlanmaq istəyənlərə qoruq-qaytaq yoxdur. Ona görə də onlar o gün bir gecədə hamımızın cibinə girdilər.

Hazırda papağı başından götürülmüş oğlan kimiyik, gözləyirik qaytarsınlar. Qaytaranda neçə gündən bəri başımızın açıq qaldığını, bu üzdən əsəbiləşdiyimizi, naxoşladığımızı vecimizə almayacağıq.

Təki papağı qaytarsınlar...

## Manatın ucuzlaşmasından müxalifət nə qədər itirdi?

**ABŞ dollarının və avronun manatına nisbətdə bahalaşması ölkə müxalifətinə də təsirsiz ötüşməyib. Müsavat başqanının müavini Elman Fəttah partiyanın maliyyə cəhətdən böhranlı vəziyyətdə olduğunu qeyd etdi: "Müsavat Partiyasının maliyyəsi olmadığına görə, ilk baxışdan ciddi bir itki ilə üzləşmədik.**

Olmayan bir şey itki verə bilməz. Amma Müsavatın üzvləri Azərbaycan vətəndaşıdırlar. Daha çox məhrumiyyətlərə məruz qalan təbəqələrdən biridir. Baş verən bahalaşmanın da ən böyük zərərini məhz maddi məhrumiyyətlər yaşayan insanlar görəcəklər. Partiyamız işıq, su və digər xərcləri fədakar üzvlərimizin maddi dəstəyi ilə ödəyir. Şübhəsiz ki, son iki gündə baş verənlər aylıq xərclərimizi müəyyənləşdirməkdə problem yaradacaq".

**VHP İcra Aparatının rəhbəri Samir Əsədli** partiyanın büdcəsindən söz açdı: "Manatın ucuzlaşmasından sonra dəqiq dəyən ziyanı hesablamamışıq. İl ərzində təxminən partiyanın büdcəsində 134 min manat olur. Bu vəsait mərkəzi aparatın, mətbu nəşrlərin, cari xərclərin və işçilərinin maaşlarına xərclənir. Əgər dolların bahalaşması prosesi davam edəcəksə, qiymət və digər artımlar baş verəcəksə, təbii ki, həm partiya, həm də onun üzvləri və mərkəzi aparat əməkdaşlarının gündəlik həyatına təsir edəcək. Bütün hallarda məsuliyyət hökumətin üzərində qalır. Sosial siyasət qura bilmir ki, vəziyyət bu həddə çatır".

**KXCP sədrinin müavini Xəzər Teyyublu** partiyanın bahalaşma ilə bağlı üzləşdiyi çətinliklərdən danışdı: "KXCP üzvləri Azərbaycan vətəndaşlarıdır. Dolların bahalaşmağı çox ciddi məsələdir. Görünən budur ki, ölkədə yaranan durum davam edəcək. Bunun bir sonru olmalı idi. Azərbaycan bütün gəlirini neftə bağlamışdı. Dünyada neftlə bağlı baş verənlər ölkə iqtisadiyyatına da təsirsiz ötüşmədi. Hökumət bu istiqamətdə adekvat addımlar atmalıdır. Partiyamızın sosial bazası müəllim, ziyalı və sadə insanlardan ibarətdir. Əlbəttə, bu bahalaşma hamımıza ciddi təsir göstərəcək".



**Elman Fəttah:**
"Olmayan bir şey itki verə bilməz"



**Xəzər Teyyublu:**
"Bahalaşma hamımıza ciddi təsir göstərəcək"

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 41 (6069) 24 fevral 2015

**Artıq heç kimə sirr deyil ki, Ukrayna Rusiya ilə Qərbin bir mübarizə, hətta (virtual) müharibə meydanına çevrilib. Doğrudur, gerçək isti müharibənin bariz əlamətləri hələ yoxdur. Çünki Ukrayna uğrunda Qərb-Rusiya savaşı daha çox qeyri-hərbi vasitələrlə, iqtisadi-siyasi, informasiya alanında gedir. Rusiya heç Ukraynada hərbi iştirakını boynuna almır, o ki ola...**

# Rusiya-NATO savaşı mümkün deyil, əks halda...

## "Qırmızı cizgi"nin keçilməsi Putin və onun rejimi üçün sui-qəsdə bərabər olardı; Kreml yeni tərəfdaşı Türkiyənin də NATO üzvü olmasını ciddiyə almaq zorundadır...

**Paralel olaraq, tərəflər arasında psixoloji müharibə gedir. Bunun təzahürüdür ki, ötən həftəsonu Putin Ukrayna ilə bağlı açıqlamalarından birində dedi ki, "heç kəs Rusiya üzərində hərbi qələbə çalacağı ilə bağlı illüziya qurmasın".**

Təbii ki, bu kimi, bəyanatlar ən əvvəl daxili auditoriyaya ünvanlanıb, daxili ictimai rəyi sakitləşdirmək, Putinin ictimai fikirdə üfürülüb şişirdilmiş "qalib" imicini qorumağa hesablanıb. Eyni zamanda hələ də "velikorus şovinizmi" virusundan qurtula bilməmiş rus mujikinə ünvanlanan bir gedişdir. Nəhayət, Rusiyanın nüvə qüdrətindən qaynaqlanan bölgə və dünyanın aqibəti baxımından təxribatçı bir bəyanatdır.

Ona görə təxribatçı ki, Rusiyanın Qərblə, NATO ilə müharibədə qalib gəlmək şansı yoxdur. Bunu Kremldə də bilirlər. Bilirlər ki, Qərbin nüvə potensialı əsla ondan aşağı deyil, əksinə. Digər klassik hərbi göstəricilər üzrə isə Moskva ABŞ və Avropadan dəfələrlə geri qalır. ABŞ-ın təkcə hərbi büdcəsi Rusiyanın ümumi büdcəsindən bir neçə dəfə böyükdür.

Moskvada onu da bilməmiş deyillər ki, ruslar Amerikaya tutaq ki, nüvə raketi uçurdan kimi Rusiya ilə həmsərhəd NATO ölkələrində, Avropadakı NATO bazalarından həmin raket nəinki qısa zamanda zərərsizləşdirilə bilər, üstəlik, Rusiyaya ən yaxın məsafədə, onun perimetri boyu yerləşən bazalardan endirilən zərbələrlə bu ölkə qısa zaman kəsiyində xarabazarlığa çevrilər. Keçən il təxminən bu vaxtlar rusiyalı hərbi-siyasi ekspertlərdən biri söyləmişdi ki, ABŞ Rusiyanı 6 saniyə ərzində susdurmaq gücündədir.

Heç şübhə yox ki, Rusiyanın hərbi kəşfiyyatı, hərbi əks-kəşfiyyatı bütün bunları yaxşı bilir. Odur ki, Putin NATO ilə, onun favorit dövləti kimi ABŞ-la açıq müharibəyə getirəcək "qırmızı xətti" keçməz. Sanksiyaların ağır nəticəsini getdikcə daha güclü hiss edən Kreml rəhbərliyi bunu indi daha çox nəzərə almaq zorundadır.

Bütün hallarda Qərbin əsas hərbi strukturu kimi NATO sözsüz ki, Ukrayna ətrafındakı prosesləri, məxsusən oradakı hərbi durumu diqqətlə izləyir. NATO generalları Kremlin proqnoza yatmayan hərəkətlərini də ciddiyə almaq zorundadırlar. Elə bunun təzahürüdür ki, artıq alyans Rusiya ilə həmsərhəd postsovet və Şərqi Avropa ölkələrində hərbi kontingentinin qüvvələrinin sayını birə-beş artırıb. Paralel olaraq cari il üçün görünməmiş sayda hərbi manevrlər və təlimlərin keçirilməsi nəzərdə tutulur.



Bundan əlavə, NATO komandanlığı Rusiyanın NATO üzvü olan hansısa ölkəyə - daha çox, rusdilli əhalinin əhəmiyyətli sayda olduğu Baltikyanı dövlətlərindən birindən söhbət gedir, - qəfil müdaxilə ssenarisinə qarşı preventiv plana malik olduğunu bəyan edib.

Əlbəttə ki, belə bir müdaxilə Putin və onun rejimi üçün sui-qəsdə bərabər olardı. Ona görə ki, o halda Ukrayna nümunəsindəki ikili yanaşmalardan, tərəddüdlərdən tam fərqli olaraq, alyans nizamnaməsinin 5-ci bəndinə ("NATO üzvlərindən birinə hücum alyansa hücum deməkdir") uyğun olaraq dərhal konkret qərar veriləcək.

Sonrası bəllidir. Bu situasiya Kremlə heç bir uduş, uğur vəd eləmir. Özünün "sısqa", nəfəsi güclə gedib gələn büdcəsi ilə Rusiya heç vaxt üzv ölkələrinin nəhəng toplam büdcəsi ilə NATO-ya qarşı duruş gətirə bilməz.

Onu da unutmaq olmaz ki, Türkiyə də NATO-nun üzvüdür və alyansın hərbi əməliyyatlarına qatılmağa borcludur. Deməli, son vaxtlar iqtisadi-ticari və energetik sahədə əlaqələri xeyli irəli getmiş Moskva ilə Ankara arasında soyuqluğun yaranması istisna deyil. Bu isə öz növbəsində Türkiyədən qat-qat çox, Rusiyanın ziyanlına işləyəcək.

**Sadalananlardan hasil olan ilkin qənaət belədir ki, Moskva nə qədər hay-küy qaldırsa da, hədələyib qorxu saçsa da, Qərb (ABŞ və Avropa) ilə qarşıdurmada həmişə "qırmızı cizgi"ni bu tərəfində oynayacaq. Həm də əsəblərlə oynayacaq.**

❑ **Siyasət şöbəsi**

# "Süleyman Şah" türbəsinin köçürülməsi Türkiyədə etirazla qarşılandı

## Müxalifət bunu məğlubiyyət kimi dəyərləndirir; yeni türbə kürd qüvvələrinin nəzarət etdiyi bölgədə tikilir...




**Xəbər verdiyimiz kimi, fevralın 22-də Türkiyə ordusu əməliyyat keçirərək Suriya ərazisində yerləşən Süleyman Şah türbəsinin yerini dəyişdirib. Türkiyə Baş Qərargahının şərti olaraq "Şah Fırat" adı verdiyi əməliyyat nəticəsində türbəni qoruyan 40 nəfərlik hərbçi və "Süleyman Şah"ın nəşi Türkiyəyə gətirilib.**

Türkiyə hökumətinin qərarına əsasən Süleyman türbə Suriya ərazisində, ancaq Türkiyəyə yaxın bölgədə yenidən inşa ediləcək. Türkiyə ordusu tankların müşayiəti ilə Kobani şəhəri yaxınlığında Eşmə bölgəsi ərazisinə yaxın yerdə türbənin yeni yerini nəzarətə götürüb. Hazırda yeni ərazidə tikinti işləri başlanıb, türbənin yeni ərazisi Türkiyə ordusunun nəzarəti altındadır.

Əməliyyat zamanı Türkiyə tərəfi Suriya hökumətini və ərazideki qüvvələri məlumatlandırıb. Ancaq rəsmi Dəməşq hadisəyə sərt reaksiya verib. Suriya XİN olayı Suriyanın ərazi bütövlüyünün pozulması kimi qiymətləndirib. Xarici işlər naziri Vəlid Muallim bildirib ki, Türkiyə hökuməti Suriyanın Türkiyədəki konsuluna məlumat versə də, cavab almadan əməliyyatı başladıb.

ABŞ hökuməti türbənin köçürülməsi əməliyyatına münasibət bildirib. Dövlət Departamentinin təmsilçisi "Hürriyet" qəzetinə açıqlamasında əməliyyatın Vaşinqtonla koordinasiyalı şəkildə həyata keçirildiyini bildirib.

Qeyd edək ki, hökumətin "Süleyman Şah" türbəsi ölkə sərhədlərinə yaxın əraziyə köçürməsi birmənalı qarşılanmayıb. Türkiyənin bəzi mərkəzləri bunu həmin bölgədə son zamanlar döyüş əməliyyatlarının şiddətlənməsi, həmçinin, türbəyə təhlükənin artması ilə izah edirlər.

Eləcə də bəzi ekspertlər Ankaranın İŞİD-ə qarşı hazırlanan əməliyyata qoşulmağa hazırlandığı və bu məqsədlə riskli bölgədə zəif yer qoymamaq üçün türbəni və postu köçürüb. Yeri gəlmişkən, hazırda "Süleyman Şah" və onunla birlikdə dəfn olunmuş iki əsgərin cənazələri Türkiyə ərazisində xüsusi hərbi qarovulun nəzarəti altındadır.

Türkiyə müxalifəti isə əməliyyatı kəskin tənqid edib. **Ana müxalifət CHP-nin lideri Kamal Kılıcdaroğlu** türbənin köçürülməsini "qoyub qaçmaq" adlandırıb. Sitat: "Güclü dövlət qarşılaşdığı ilk təhdiddə torpaqlarını qoyub qaçmaqla deyil, terrorçulara dərs verməklə olur. Bu utanc Türkiyəyə çoxdur. Öz hərbi postunu dağıdıb, öz əsgərlərini geri çəkib, öz torpağını tərk etməyi "uğur" kimi təqdim etmək danışılmış bir döyüşün sübutudur. "Süleyman Şah"dan qaçma təlimatını verənlər, sabah bu ölkədən qaçacaq. Ancaq Türkiyəyə yaşatdığınız hər cür utancın hesabını soracağam".

Kılıçdaroğlu"twitter hesabında yazıb ki, "terrorçunun önündə əyilən, vətən torpağını satan hökumət sabah qarşılaşacağı digər təhdidlərə qarşı ilk işinin qaçmaq olduğunu göstərdi".

**CHB baş katibi Gürsel Təkin** türbənin köçürülməsinə "Şah deyil, mat əməliyyatı olub. 90 illik respublika tarixində ilk dəfə savaşmadan torpaqlarımızı itirdik, bu qəbul ediləcək bir durum deyil" sözləri ilə münasibət bildirib.

**MHP sədrinin müavini Semih Yalçın** türbə köçürülməsini "vətən torpağının tərk edilməsi" adlandırıb. Sitat: "Bizə görə bu, vətən torpaqlarının tərk edilib boşaldılmasından başqa bir şey deyildir".

S.Yalçın əməliyyatın uğurlu olması ilə bağlı Türkiyə hökumətinin təbliğat apardığını qeyd edib: "Hökumət oradakı tarixi bağlarımız olan torpaqları tərk etməyə məcbur qalıb. Nə olur-olsun, bu ölkənin silahlı qüvvələri, hökuməti bu torpağı qorumağa borcludur. Ağlımıza gəlir ki, bundan sonra hər dəfə risk yarandıqda, hər dəfə sıxışdırıldıqda sırada hansı vətən torpağı olacaq. Fövqəladə yanlış bir əməliyyatdır".

Qeyd edək ki, artıq yeni türbənin inşaatı başlayıb. Türbədə dəfn ediləcək Süleyman Şah tarixi mənbələrə görə, 1086-cı ildə Fərat çayını keçmək istəyərkən iki mühafizəçi əsgəri ilə birlikdə Fərat çayında boğulub. Osmanlı dövlətinin qurucularının ulu babası öldüyü yerdə, Fərat sahillərində dəfn olunub və üzərində türbə ucaldılıb.

Osmanlı İmperiyasının dağılmasından sonra "Süleyman Şah" türbəsinin yerləşdiyi ərazi Fransanın müstəmləkəsi olub. 21 oktyabr 1921-ci ildə Fransa və Türkiyə hökumətləri arasında imzalanmış Ankara müqaviləsinin 9-cu maddəsi və 24 iyul 1923-cü ildə imzalanmış Lozan müqaviləsinin 3-cü maddəsinə görə Caber qalası və "Süleyman Şah" türbəsi Türkiyə Cümhuriyyətinin torpaqları kimi tanınıb. Müqaviləyə əsasən, Türkiyə dövlətinin bu türbəni mühafizə etmək üçün orda ordu saxlamaq və bayraq qaldırmaq hüququ tanınıb. Bu müqavilə sonradan müstəqillik qazanan Suriya dövləti tərəfindən qəbul olunub.

Ancaq "soyuq müharibə" illərində Suriya ilə Türkiyə arasında yaranmış gərginlik bir neçə dəfə "Süleyman Şah" türbəsinə də təsir göstərib. Ən böyük böhran isə 1968-ci ildə baş verib. Həmin il Suriya hökuməti Fərat çayı üzərində su bəndi və elektrik stansiyası tikmək qərarı qəbul edib. Təbka bəndinin 5 il ərzində, yeni 1973-cü ildə tikilib təhvil verilməsi planlaşdırılırdı və bu zaman bəndin qarşısında su basacaq ərazilərə Caber qalası və "Süleyman Şah" türbəsi də düşürdü. Suriya hökuməti bunun əsas gətirərək Ankaraya türbənin yerini dəyişdirmək və ya Türkiyəyə köçürməklə bağlı nota vermişdi.

Beləliklə, 1973-cü ildə türbə və hərbi post yeni əraziyə köçürülür. Türbənin yeri ərazisi Karakozak kəndi ərazisində yerləşirdi və 10 min kv.metr sahəni əhatə edirdi. Fərat çayının şərq sahilində yerləşən türbə ilə Hələb arasında 123, Şanlıurfa arasında isə 92 kilometr məsafə var. 2001-ci ildə bəndin böyüməsi ilə türbənin yerinin dəyişdirilməsi bir daha təklif olunsa da, Türkiyə hökumətinin səyləri nəticəsində layihə türbənin mövcud yerinin qorunması yönündə dəyişdirilib və türbə növbəti dəfə köçürülməkdən xilas olub. 22 fevral 2015-ci ilə qədər türbə bu yerdə qalıb.

**23 oktyabr 2003-cü ildə Ankarada imzalanmış razılaşmaya əsasən, türbənin yerləşdiyi ərazi yenidən qurulub, türbənin binası içəridən və çöldən bərpa edilib, yeni hərbi post tikilib. Bundan sonra türbə yenidən ziyarətə açılıb.**

❑ **KƏNAN**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



Yeni MÜSAVAT

N 41 (6069) 24 fevral 2015

# Qarabağın Azərbaycanlı İcmasından həmsədrlərə etiraz

**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycandan sonra Ermənistandakı rəsmilər, həmçinin işğal olunmuş ərazilərimizdə kök salmış separatçı rejimin qondarma rəhbərliyi ilə görüşlərdən sonra onların sərgilədiyi mövqe haqlı narazılıq doğurdu. Diplomatlar beynəlxalq prinsipləri tapdayaraq, həmçinin Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik sərgiləyərək Xankəndindəki təmaslarını Dağlıq Qarabağın "faktiki rəhbərliyi ilə görüş" kimi təqdim etdilər.**



**Bayram Səfərov: "Həmsədrlərə o zaman etimadım olacaq ki, mən Şuşada, öz evimdə yaşayacağam..."**



**Elxan Şahinoğlu: "Həmsədrlər vaxt öldürür, İrəvanın nazıyla oynayırlar..."**

Həmsədrlərin bundan əvvəlki bəyanatının da Azərbaycanın əleyhinə yönəldiyini nəzərə alsaq, onların tutduğu mövqe səbəbsiz görünmür. Əgər tərəfsiz olduqlarını bəyan edən bir qurumun rəhbərliyi təcavüzə məruz qalan ölkəyə qarşı davamlı şəkildə təxribatçı mövqe sərgiləyirsə, bunun səbəblərinin araşdırılması təbii ki, zərurudir.

Diqqət edin, erməni tərəfi işğal zonasında hansısa itkilər verəndə həmsədrlər dərhal narahat olduqları barədə bəyanat verir, hətta rəsmi Bakını qınamağa cəhd göstərirlər. Ancaq elə onların bölgəyə səfərindən dərhal sonra düşmənin təxribat-diversiya hücumunun qarşını alarkən Azərbaycan ordusu şəhid verdi. Silahlı Qüvvələrimizin hərbi qulluqçusu, əsgər Cavadov Zəlimxan Eybalı oğlu şəhid oldu. Ancaq daşdan səs çıxdı, həmsədrlərdən yox. Bunun əvəzində onlar Qarabağdakı terrorçu-separatçı qurumu "tərəf" kimi təqdim etmək üçün yeni variantlar uydururlar.

**Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının sədri Bayram Səfərov** "Yeni Müsavat"a dedi ki, həmsədrlərə onların çoxdan etimadı yox idi: "Mənim onlara əvvəldən etimadım olmayıb. Həmsədrlərə o zaman etimadım olacaq ki, mən Şuşada, öz evimdə yaşayacağam. Ancaq onların dedikləri nəyisə həll etmir. Azərbaycan xalqının, dövlətinin öz siyasəti var və biz milli maraqlarımızı əsas tuturuq".

Ancaq bununla belə, Bayram Səfərovun mövqeyi belədir ki, həmsədrlər erməni və azərbaycanlı icmalar arasında dialoq məsələsində ciddi səy göstərməli və təkliflər irəli sürməlidirlər. "Dağlıq Qarabağın Azərbaycanlı İcması daim konstruktiv mövqe sərgiləyir və daim dialoqa açıq olduğunu bildirir. Biz dəfələrlə bildirmişik ki, Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni və azərbaycanlı icmaları arasında dialoq vacibdir və bu qarşılıqlı inamın bərpa olunması və sülh sazişinin əldə olunmasından sonra əhəmiyyətli rol oynaya bilər. Lakin Ermənistan tərəfi bu məsələdə də konstruktiv mövqe sərgiləmir. Biz dəfələrlə bu cür görüşlərin təşkil olunmasına çağırsaq da, qarşı tərəf buna imkan vermir və hər vəchlə manea olur. Dialoq və etimadın qurulmasında həmsədrlərin də rolu çox vacib və önəmlidir", - deyə B. Səfərov amerikalı həmsədr Ceyms Uorlikin dialoq təşəbbüsünə münasibət bildirərkən söyləyib.

Azərbaycanlı girovların taleyi ilə bağlı hansı proseslərin getdiyinə gəldikdə, icma rəhbəri bildirdi ki, bu məsələ dövlətin daim diqqətindədir: "Möhtərəm prezident də bu məsələni daim diqqətdə saxlayır. Elə bunun nəticəsidir ki, Rusiya XİN-dən tutmuş ABŞ diplomatlarına qədər hər kəs girovların azad olunmalı olduğunu bəyan edib. Erməni yəqin ki, sonda cəzasını alacaq. Dünya başa düşür ki, azərbaycanlılar öz evinə gedərkən ermənilər tərəfindən tutulublar. Erməninin mənim torpağımda nə işi var? Əslində cinayətkar onlardır və cəzasını almalıdırlar".

Cəbhə xəttindəki gərginliyin hər an böyük müharibəyə gətirib çıxaracağı ehtimalları da gündən-günə ciddiləşir. Həmsədrlərin bölgəyə son səfəri də hesab olunur ki, bu gərginliyin səngidilməsinə yönəlmişdi.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** həmsədrlərin səfərindən bu dəfə də fövqəladə nəsə gözləmədiyini vurğuladı: "Həmsədrlərin bölgəyə budəfəki səfəri sadəcə bir mövzuyla bağlı idi: necə edək ki, atəşkəs pozulmasın və bu barədə prezidentlərdən zəmanət alaq. Doğrudur, yaxın gələcəkdə prezidentləri görüşdürmək kimi bir başqa mövzunu da müzakirəyə çıxartdılar. Ancaq danışıqlarda irəliləyiş yoxdursa, prezidentlərin görüşünə də ehtiyac yoxdur. Digər tərəfdən, Ermənistan prezidenti Serj Sərkisyanın başı aprel ayında keçiriləcək "erməni soyqırımı"nın yüz illiyinə qarışıb. Bu tədbir ona Türkiyə və Azərbaycana əlavə problem yaratmaq üçündür. Ona görə Sərkisyan belə bir ərəfədə azərbaycanlı həmkarı ilə görüşmək istəməz".

**Atəşkəs hallarının intensiv şəkildə pozulmasına gəldikdə, politoloq deyir ki, atəşkəsin ən azı iyun ayına qədər qorunmasında ilk növbədə rəsmi Bakı maraqlıdır:** "İyun ayında Bakıda Avropa Olimpiya Oyunları keçiriləcək. Azərbaycan hakimiyyəti həmin tarixə qədər sakitlikdə maraqlıdır. Əks halda, olimpiya oyunlarına kölgə salına bilər. Demək, ermənilərin olimpiya oyunları ərəfəsində təxribata əl atacaqlarını istisna etmək olmaz. İyuna qədər atəşkəsə riayət olunsa belə, biz bu il ərzində cəbhə bölgəsində hələ çox lokal toqquşmaların şahidi olacağıq. Həmsədrlər vaxt öldürür, özlərinin hazırladığı planı Ermənistan hakimiyyətinə qəbul etdirmək istəmirlər, İrəvanın nazıyla oynayırlar. Halbuki, onlar erməni separatçılarını sülhə məcbur etmək iqtidarındadırlar. Necə olur, Minskdə yığışaraq Donbas separatçılarını Ukraynanın ərazi bütövlüyü çərçivəsində geniş muxtariyyətə razı salırlar, Qarabağ separatçılarını buna razı sala bilmirlər? Ukraynadakı böhranın həlli məqsədilə "Normand formatı"ndakı 4 dövlətdən ikisi - Rusiya və Fransa Minsk Qrupunda həmsədrdirlər. Yəni bu dövlətlər istəsələr, Ermənistanı məcburi sülhə məcbur edə bilərlər. Amerikalı diplomatlar son zamanlar açıq deyirlər ki, Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmalıdır".

**E.Şahinoğlu həmsədrlər arasında mövcud fikir ayrılığına da diqqət çəkdi:** "Amerikalı diplomatlar ayrıca, erməni separatçılarını iki azərbaycanlı girovu sərbəst buraxmağa da çağırırlar. Bəs niyə eyni fikirləri fransalı və rusiyalı diplomatlardan, həmsədrlərdən eşitmirik? Halbuki, həmsədr dövlətlər sözü bir yerə qoysalar, həm girovlarımızı azad edərlər, həm də ilkin mərhələdə heç olmazsa Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonun boşaldılması prosesini sürətləndirərlər. Bu ümumi sülhün əldə olunması güclü təkan verər. Demək, münaqişənin həlli böyük dövlətləri maraqlandırmır, münaqişənin dondurulmuş vəziyyətdə qalması onlara mane olmur. Ancaq anlamalı olduqları önəmli amil var: Azərbaycan münaqişənin əbədiyyətə qədər dondurulmuş vəziyyətdə qalmasıyla barışmayacaq, lazım gəlsə işğalçının helikopterini də vuracaq, cəbhə xəttini keçərək, düşmənə başqa lokal zərbələr də endirəcək".

# Azərbaycandakı dini liderlərdən dünya birliyinə Xocalı müraciəti



**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə Bakı və Azərbaycan Arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev və Azərbaycandakı katolik icmasının rəhbəri Ordinari Vladimir Fekete ilə birgə Azərbaycan xalqına qarşı törədilən Xocalı soyqırımı ilə bağlı dünya dini liderlərinə, parlamentlərə, beynəlxalq təşkilatlara və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət ünvanlayıb.**

QMİ-nin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, müraciətdə bildirilir ki, milyonlarla azərbaycanlının iradə və hisslərini ifadə edərək, dini, dili, irqi və milli mənsubiyyətində görə fərq qoymadan bütün dünya ictimaiyyətinə Azərbaycan şəhəri Xocalıda dinc əhaliyə qarşı törədilmiş soyqırımın 23-cü ildönümü ərəfəsində müraciət edilir.

Müraciətdə daha sonra deyilir: "Elə bir xalq, elə bir din ola bilməz ki, ümumbəşəri mənəvi dəyərlərə zidd olan zorakılıq, qətl, təcavüz kimi qeyri-insani cinayət əməllərinə haqq qazandırsın. Tarixi gerçəklik ondan ibarətdir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə minlərlə dinc, silahsız, müdafiəsiz Xocalı sakinləri erməni işğalçılarının qəfil və amansız basqınına məruz qalıb. 613 nəfər xüsusi qəddarlıqla qətlə yetirilib, qocalara, uşaqlara, hamilə qadınlara belə rəhm olunmayıb. Nəticə etibarilə Xocalı şəhəri yer üzündən silinib, onun 150 nəfər sakini itkin düşüb, 1275 nəfəri əsir götürülərək ağır işgəncələrə məruz qalıb, amansızcasına qətlə yetirilmiş insanların meyitləri üzərində ağla sığmayan vəhşiliklər törədilib. Zaman-zaman Azərbaycan xalqına qarşı etnik təmizləmə, maddi və mənəvi terror gerçəkləşdirmiş erməni ekstremistləri ərazimizin 20 faizini işğal edib, bir milyondan artıq azərbaycanlını doğma yurdlarından didərgin salıb, qəsb etdikləri Qarabağ torpaqlarında vandalizm aktları həyata keçirərək tarixi, dini və mədəniyyət abidələrimizi məhv ediblər. Xocalı da dinc əhaliyə qarşı həyata keçirdikləri məqsədyönlü soyqırımı aktı isə onların törətdikləri vəhşiliklərin kulminasiya nöqtəsi olub. Lakin təəssüflər olsun ki, iyirmi ildən artıq müddət keçməsinə baxmayaraq, BMT Təhlükəsizlik Şurasının erməni qəsbkarlarının zəbt olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 məlum qətnaməsinin şərtləri bu günədək yerinə yetirilməyib, erməni terrorçuları törətdikləri cinayətlərə görə hələ də cəza almayıblar".

**Müraciətdə daha sonra deyilir:** "Belə cəzasızlıq isə öz növbəsində analoji cinayətlərin təkrarlanmasına rəvac verir. Bu gün artıq dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatları Xocalı faciəsini soyqırımı aktı kimi tanıyıb... Biz, Azərbaycanda yaşayan müxtəlif konfessiyadan olan din xadimləri Vətənimiz Azərbaycanın ayrılmaz parçası olan Qarabağda, o cümlədən Xocalıda şəhid olmuş insanların xatirəsini əziz tutur, bütün dünya xalqlarına sülh, səadət və rifah diləyirik. Hər birimizin Rəbbimiz qarşısında, bəşəriyyət qarşısında müqəddəs borcumuz ədalətin bərqərarına nail olmaqdır. Buna görə də üzümüzü bir daha dünyanın dini liderlərinə, parlamentlərinə, beynəlxalq təşkilatlara və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə tutaraq, Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulmasına, cinayətkar əməllərə prinsipial siyasi, hüquqi qiymət verilərək günahkarların cəzalandırılmasına və Xocalıda törədilən kütləvi qırğının soyqırım aktı kimi tanınmasına çağırırıq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 41 (6069) 24 fevral 2015

# 14 ildir aliment ala bilməyən qadın nazirə səsləndi

## **Əliyeva Pərvanə:** “Cənab nazir, övladımın haqqını almaqda mənə köməklik edin”

**Bakı şəhəri, Xəzər rayonunun Qazmacılar küçəsi ev 22 ünvanında yaşayan Əliyeva Pərvanə Nizami qızı “Yeni Müsavat”dan kömək istəyir. 14 ildir ailəsindən ayrılan şikayətçi qadın məhkəmə qərarına baxmayaraq, aliment ala bilmədiyini deyir. Pərvanə Əliyevanın dediyinə görə, 16 yaşı övladı ilə ağır vəziyyətdə yaşayır, aidiyyəti orqanlara etdiyi müraciətlər cavabsız qalır.**



Şikayətçinin sözlərinə görə, Gədəbəy rayonunun baş icra məmuru qəsdən 7 ildir ki, məhkəmə qərarını yubadır. İşin maraqlı tərəfi odur ki, Gədəbəy rayonunda qeydiyyatda olan P.Əliyevanın keçmiş həyat yoldaşı İsgəndərov Rasim Fərmayıl oğlu Mərdəkan polisində axtarışa verilib.

**P.Əliyeva acınacaqlı həyatını olduğu kimi bizə danışdı:** “1978-ci ildə doğulmuşam. 1998-ci ildə Gədəbəy rayonu Çobankənd sakini İsgəndərov Rasim Fərmayıl oğlu ilə ailə həyatı qurmuşam. Bu nikahdan bir qızım var. Ailə problemim olduğu üçün, Rasimlə 2001-ci ildə ayrıldım. 7 il ərzində ailə həyatımın düzələcəyi ümidi ilə alimentlə bağlı heç yerə müraciət etmədim. Min əzabla qızımı böyütdüm. Sonda artıq dolanışığım çətinləşdiyi üçün 2008-ci ildə Xəzər Rayon Məhkəməsinə (keçmiş Əzizbəyov) müraciət etdim. Dövlət mənə qızım yetkinlik yaşına çatana kimi, 50 manat məbləğində pul kəsdi.

Lakin 2008-2015-ci illər ərzində yalnız 1000 manat pul almışam. İndiyə qədər 4200 manat pul ödənməli idi. İş Gədəbəyin icraçısı İsgəndərov Yelmar Firudin oğluna tapşırılıb. Amma göründüyü kimi, bu müddət ərzində əməli iş görməyib. Ona zəng edəndə telefona nadir hallarda cavab verir. Onda da deyir ki, narahat olma, ödəyəcəklər. Başa düşmürəm ki, nə vaxt ödəyəcəklər? 7 ildir bu sözləri eşitməkdən bezmişəm. Qızımın artıq 16 yaşı var. İki ildən sonra yetkinlik yaşına çatır. Onda da deyəcəklər ki, yaşı tamam olub. Qızım yaxşı oxuduğu üçün hazırlığa qoymaq istəyirəm. Amma maddi imkanım yoxdur. Dolana da bilmirik".

**Şikayətçi keçmiş həyat yoldaşı Rasim İsgəndərovun axtarışa verildiyini, lakin məsuliyyətə cəlb olunmadığını bildirdi:** “2014-cü il iyulun 23-dən etibarən Rasim Xəzər Rayon Polis İdarəsində axtarışa verilib. Ortalıqda gəzir, amma heç bir məsuliyyətə alınmır. Onun Əkbər adlı bir dayısı var. Məktəbdə müəllim işləyir. Mənə xahiş etmişdi ki, 3 ay gözlə. Mən də gözlədim. Fikirləşdim ki, imkanları olmaya bilər. Amma fevralın 10-da ona zəng etdiyim zaman yanıldığımı gördüm. Məni təhqir edərək dedi ki, aliment məsələsi ilə bağlı bir daha məni narahat eləmə. Hətta dedi ki, get Rasimi tutdur, guya bununla pul alacaqsan. Bax belə insanlarla üz-üzəyəm. Qeyd edim ki, keçən il aldığım 1000 manat pulu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovaya, nazirliyin qaynar xəttinə, Mehriban Əliyeva müraciətlərimdən sonra almışam”.

**Şikayətçi qadın iş qabiliyyətini itirdiyinə görə, ailə vəziyyətinin acınacaqlı olduğunu söylədi:** “Əvvəllər çox ağır işlərdə işləmişəm. Savadım olmadığı üçün övladıma görə ən ağır əzablara qatlaşmışam. Qızım 10-da oxuyur. İstəmirəm ki, çəkdiyim əzabları o da çəksin. Bir sənətə yiyələnməyini istəyirəm. Axır illər böyrəklərim ağrıdığına görə, işləyə bilmirəm. Qızımın bütün sinif yoldaşları hazırlığa gedir. Amma mən göndərə bilmirəm. Qızımın da digərləri kimi təhsil almaq haqqı var”.

**Pərvanə Əliyeva ədliyyə naziri Fikrət Məmmədova müraciət etdi:** “Qəzetiniz vasitəsilə ədliyyə naziri Fikrət Məmmədova müraciət edirəm. Cənab nazir, mənə kömək olun. Çox xahiş edirəm ki, övladımın haqqını almaqda mənə köməklik edəsiniz”.

Şikayətdə adı çəkilən şəxslərin də mövqeyini öyrəndik.

**Məhkəmə icraçısı Yelmar İsgəndərov** bu istiqamətdə üzərlərinə düşən işi etdiklərini bildirdi: “Bizdə belə bir iş var. Rasim həmin ərazidə yaşamadığı üçün axtarışa verilib. Xəzər Rayon Polis İdarəsi tərəfindən həmin şəxs barədə axtarılır. Uşaqların dolandırılması çox çətindir. Bu baxımdan Rasim axtarışda ola-ola qohumları tərəfindən Pərvanəyə 1000 manat pul ödətdirmişik. Axırıncı ödəniş 19 fevralda olub. Ödəniş olmasa, biz onun barəsində cinayət işi açıb, məsuliyyətə cəlb edəcəyik. O, axtarış nəticəsində üzə çıxandan sonra tədbir görəcəyik. DİN-nin əmrinə əsasən, axtarış tələbkarın yaşadığı yer üzrə verilməlidir. Əslində onu biz axtarışa vermişdik”.

**Xəzər Rayon Polis İdarəsinin Natiq Nəsirov ad-soyadlı əməkdaşı Rasim İsgəndərovun axtarışda olduğunu təsdiqlədi:** “Bütün tədbirlər görülür. Sadəcə onun yeri bilinmir. Qaçıb, gizlənib. Bu ayın axırına qədər 3200 manat ödəniləcək. İşi bağlayacağıq. Gədəbəy polisindən deyiblər ki, Rasim gələn kimi, sutkalıq veriləcək. Ona görə gizlənib. Söz verirəm ki, bu ayın axırına qədər məsələ bağlanacaq”.

❑ **Cavanşir ABBASLI**

# Azərbaycanlı iş adamı Donetskdə itkin düşüb

**Ukraynanın Donetsk şəhərində keçmiş azərbaycanlı məmur, iş adamı itkin düşüb. Donetsk vilayəti Azərbaycanlılar Konqresinin sədr müavini, vilayətin Krasnoarmeysk şəhəri Azərbaycanlılar Cəmiyyətinin sədri Şahin Bəylərov APA-ya bildirib ki, itkin düşən şəxs Ukrayna vətəndaşı, əslən Gürcüstandan olan azərbaycanlı, 55 yaşlı Füzuli Məmmədovdur. Bir həftədən artıqdır itkin düşən və indiyə qədər barəsində heç bir məlumat olmayan Füzuli Məmmədov Donetsk şəhəri ətrafında iri fermer təsərrüfatına malik olub və bir müddət əvvələ qədər vilayətin kənd təsərrüfatı sistemində yüksək vəzifələr tutub.**

Yaxınları onun itkin düşməsi ilə bağlı müvafiq dövlət qurumlarını məlumatlandırıblar.

# Bakıda avtobus qəza törətdi: ata öldü, oğlu yaralandı

**Bakıda sərnişin avtobusunun törədiyi qəzada bir nəfər ölüb, bir nəfər isə xəsarət alıb. Suraxanı Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Bülbülə qəsəbəsində qeydə alınıb.**

1987-ci il təvəllüdlü Rauf Sabir oğlu Yusifovun idarə etdiyi “VAZ 21-07" markalı avtomobillə, 184 saylı xətt üzrə hərəkət edən ”Daewoo" markalı sərnişin avtobusu toqquşub.

Qəza zamanı “VAZ 21-07" markalı avtomobildə olan 1956-cı il təvəllüdlü sərnişin, sürücünün atası Sabir Abdulla oğlu Yusifov hadisə yerində ölüb, sürücü isə ağır bədən xəsarətlə ilə xəstəxanaya yerləşdirilib.




# “Alcatel D5” smartfonu al, “Nar Mobile”dan bonus qazan!

**“Nar Mobile” və “Irshad Electronics” mağazalar şəbəkəsi daha bir müştərək kampaniyaya start verdilər.**

**Kampaniya çərçivəsində, ayda cəmi 9 AZN ödəyərək “Irshad Electronics”-dən “Alcatel D5" smartfonu əldə edən hər bir kəsə içində bonuslar olan pulsuz Nar nömrəsi hədiyyə olunur. Nömrə ilə birlikdə abunəçilər yarım il boyunca 100 AZN dəyərində şəbəkədaxili danışıq və aylıq 100 Mb İnternet trafiki qazanır. Bonusu aktivləşdirmək üçün hər ay balansı 5 AZN dəyərində artırmaq kifayətdir.**

**Daha ətraflı məlumatı bizim İnternet səhifəmizdən əldə edə bilərsiniz:**

**https://www.narmobile.az/pages/default/pageName=campaigns_catalog&id=1285/**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan “Nar Mobile” 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində “Nar Mobile” daima sərfəli qiymət siyasətinə sadiq qalaraq, müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. “Nar Mobile” Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**

# «Nar Mobile» 4G xidmətlərini göstərmək üçün tezlikləri əldə etdi

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru «Nar Mobile», abunəçilərinə 4G xidmətlərini göstərmək üçün Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən lisensiya əldə edib. Mobil operator Azərbaycanda 4G texnologiyasını tətbiq etmək üçün lazımı prosedurları keçib.**

**Azerfon şirkətinin baş icraçı direktoru, Kent Maknili bildirib ki, mobil operator tezliklərin alınması üçün Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən icazəni alıb və abunəçilərinə 4G xidmətlərini göstərməyə tam hazırdır: “Biz artıq şəbəkəmizi qurmuşuq. Bakıda baza stansiyalarımızın sayı çoxdur, şəbəkəmiz kifayət qədər genişdir. 2015-ci il ərzində bu prosesi davam etdirəcəyik.”**

**«Nar Mobile» texnoloji yenilikləri Azərbaycan bazarına gətirməyə davam edir. Belə ki, «Nar Mobile» Azərbaycanda ilk dəfə olaraq 3G şəbəkəsini tətbiq etməklə yanaşı, AZAL təyyarələrində mobil rabitə xidmətlərini tətbiq edib, bu yaxınlarda isə «Nar Home» adlanan məhsulunu təqdim edib ki, “Nar Home” istehlakçının istifadə etdiyi müxtəlif cihazlarda (televizor, planşet və ya smartfonlar) media və əyləncə xidmətlərindən vahid istifadə imkanlarını yaradan unikal konsepsiyadır. İndi isə «Nar Mobile» abunəçiləri 4G xidmətlərindən yararlana biləcəklər.**

**4G (4-cü nəsil) texnologiyası abunəçilərə 300 mbps qədər internet sürətindən istifadə etmək imkanı yaradaraq.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan “Nar Mobile” 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində “Nar Mobile” daima sərfəli qiymət siyasətinə sadiq qalaraq, müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. “Nar Mobile” Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**



## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- Çayek balı
- *Karkıra balı və s.*

**Ünvan:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71



## Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; 077 - 365 - 98 - 40; 012 - 497 - 43 - 04



## Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

Dosye: Z.Amanov 1952-ci ildə Masallı rayonunun Ərkivan qəsəbəsində dünyaya gəlib. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 1992-ci ildə Masallıda ilk müstəqil qəzetin redaktoru olub. 1993-cü ildən 2003-cü ilə kimi onun təsisçiliyi və baş redaktorluğu ilə "Masallı xəbərləri" qəzeti çap olunub. 2003-cü ildə həmin qəzetin bazasında "Cənub xəbərləri" qəzetini yaradıb. Hazırda həmin qəzetin sahibidir. Cənub bölgəsinin problemlərindən yazdığı yazılara görə 2004-cü ildə Azərbaycan Jurnalistlər Birliyinin Həsən Bəy Zərdabi adına mükafatına layiq görülüb. Ailəlidir. 2 qızı, 1 oğlu var.

**Zahir AMANOV**



# Qadın hüquqları

## Onu kimlər tapdalayır və kimlər müdafiə edir?



...Nigar (ad şərtidir) cənub ucqar dağ rayonlarındakı kəndlərdən birində yaşayırdı. Ata-anasını vaxtsız itirmişdi. Bəxtinə valideynsizlik düşsə də, tale çox qızların həsrət çəkdiyi gözəlliyi ondan əsirgəməmişdi.

Bir gün kəndə xəbər yayıldı ki, Nigarı naməlum şəxslər qaçırdıblar. 2 gündən sonra Nigar olduqca xoşagəlməz vəziyyətdə yenidən kənddə göründü. O, olduqca stress vəziyyətində idi. Qohumları tərəfindən təhqirlərə, təzyiqlərə məruz qalan qadın təkcə onu bildirib ki, naməlum şəxslər onu aldadaraq maşınlarına mindirmiş, sonra şəhərə aparıb orada ona təcavüz ediblər. Günahkarlar tapılandan sonra isə şərləyiblər ki, guya qızı qaçırdanlardan biri onunla evlənəcəkmiş, lakin qız bakirə olmayıb.

...Valideynləri olmayan bu qızın qohumları çaşıb qalmışdılar. Hara müraciət edəcəklərini bilmirdilər. Sadəcə qızı qapalı şəkildə saxlayır, onu incidirdilər. Bir aydan sonra isə məlum oldu ki, Nigar evdən qaçıb və Aran rayonlarının birindəki yeməkxanada əxlaqsızlıqla məşğuldur.

... Belə hallar isə demək olar ki, yeganə deyil. İnsanların məlumatsızlığından, sadəlövhlüyündən istifadə edərək əyalət qızları tez-tez aldadılır, həyatları çıxılmaz duruma salınır. Qızlar isə nə edəcəklərini bilmirlər. Yerli mentallıq məcbur edir ki, çox vaxt belə halları gizlətsinlər. Məhkəməyə müraciət isə heç də havayı başa gəlmir - vəkil tutmaq, bir neçə dəfə rayon mərkəzinə, əlavə şikayət olarsa, qonşu rayonlardakı Apelyasiya Məhkəməsinə, daha sonra Bakıya - Ali Məhkəməyə getsinlər. Göründüyü kimi, xeyli xərc və vaxt tələb olunur, sonda isə nəticə də ürəkaçan olmur.

Bəs çıxış yolu nədədir? **Lənkərandakı "Adiloğlu" MMC Hüquq Firmasının rəhbəri Sədrəddin Kazımovun** fikrincə, bu sahədə QHT-lərin roluna böyük diqqət yetirilməlidir. Hər şey ziyan çəkən üçün, problemlə üzləşən qadınlar üçün daha əlçatan olmalıdır. Hazırda cənub rayonlarında 1 milyona yaxın əhali yaşayır, lakin qeydiyyatdan keçən QHT-lərin sayı 10-dan artıq deyil. Onların da cəmi bir neçəsi qadın problemləri ilə məşğul olur. Bir neçə cənub rayonunda - Cəlilabadda, Astarada, Lerikdə, Yardımlıda, demək olar ki, qeydiyyatdan keçən QHT yoxdur. İcra hakimiyyətinin himayəsi altında olan Qadın Şuraları və buna bənzər qurumlar isə olduqca formal fəaliyyət göstərirlər.

**Astaranın tanınmış ziyalılarından Müstəcab Məmmədov** isə bildirir ki, qadın problemləri və bu sahədə regionlarda QHT-lərin yaranması doğrudan da, problemə çevrilib. Hər şey Bakıda mərkəzləşib. Mərkəzdə fəaliyyət göstərən qadın hüquqları ilə məşğul olan QHT-lərin regionlara səfərləri isə bəzən əyalətlərin mərkəzi rayonlarından uzağa getmir. Bu sahədə Dilarə Əliyeva adına Qadın Hüquqları cəmiyyəti daha çox fəaliyyət göstərsə də, onlar da bütün regionu əhatə edə bilmirlər. Məsələn, Lerik Azərbaycanın ən ucqar rayonlarındandır. Burada elə kəndlər var ki, rayon mərkəzindən 40 kilometr uzaqda yerləşir və ora getmək üçün yollar elə bərbaddır ki, ən azı 1 gününü və 40-50 manat pulunu itirməlisən.

**Bu gün əyalət qadınlarının problemləri isə kifayət qədərdir:**

- Az yaşlıların nikahı;
- İşsizlik;
- Ailə zorakılığı;
- Ailə qurmamış qızların sayının günbəgün artması;
- Boşanmaların çoxalması;
- Ali təhsil almaq imkanlarının məhdudluğu və sair.

Bütün bunlar təkcə icra strukturlarının, bələdiyyələrin, siyasi partiyaların rayon təşkilatlarının gücü daxilində deyil.

İctimai-siyasi birliklər, icmalar, məhəllə komitələrinin fəaliyyəti nəzərə çarpacaq dərəcədə artmalıdır. Qadın klubları, birlikləri isə ya yoxdur, ya da bir-iki yerdə formal şəkildə fəaliyyət göstərir.

Bu gün regionlarda təsis edilmiş QHT-lərin qeydiyyata alınması isə çox ciddi problemə çevrilib. Məsələn, Lənkəranın ən fəal ziyalı qadınlarından olan M. Tağıyeva 1 ilə yaxındır ki, qadınların maarifləndirilməsi ilə bağlı QHT yaradıb, lakin onu qeydiyyatdan keçirə bilmir. Ədliyyə Nazirliyi hər dəfə gülünc bəhanələrlə sənədləri geri qaytarır. Astarada, Masallıda və digər rayonlarda da belə problemlərlə üzləşənlər az deyil.

**Masallıdan olan Əbdül Əsgərli** hesab edir ki, bu sahədə statistika yoxdur, qanunlarda boşluq var, xeyriyyəçilər bu işlərə cəlb edilmir. İcra strukturları bu işə kömək etsə də, bəzən mövcud boşluqlardan sui-istifadə edirlər. Məsələn, azyaşlıların nikahı bəzilərinin qazanc mənbəyinə çevrilib. Belə ki, kimsə azyaşlı qızı ərə verir, bir də görürsən, əlaqədar təşkilatların nümayəndələri həmin valideynləri çağırıb bazarlığa gedirlər. Bu da ondan irəli gəlir ki, qanunda boşluq var. Birdəfəlik qanun qəbul edilməlidir ki, rəsmi nikahı olmayana mollanın kəbin kəsməsi cinayətdir. Yaxud deyirlər ki, filan yerdə azyaşlıların ərə verilməsi artıb. Amma konkret bir yaşayış məntəqəsi göstərilmir ki, filan kənddə bu il 20 toy olub, bu toylardan 3-də, 5-də azyaşlı rəsmi nikaha girmədən ailə qurub. Hamı ümumi danışır, yaxud da tək-tük misal çəkir.

... Yuxarıda sadaladığımız digər qadın problemləri haqqında xeyli danışmaq olar. Hələ ki, əsas problemlərdən biri yerlərdə QHT-lərin az olması, qadın problemləri ilə məşğul olan təşkilatların barmaqla sayılacaq qədər məhdudluğu, statistikanın, rəy sorğularının kifayət qədər aparılmaması, aşkarlığın lazımi səviyyədə qurulmamasıdır.

Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və D.Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiya tərəfindən icra edilən və ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşən Counterpart İnternationalın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən «CEDAW ƏMƏLDƏ» adlı layihəsinin elan etdiyi müsabiqəyə təqdim edilmək üçün hazırlanıb.

# Bu gün Su çərşənbəsidir

## Novruzun ilk müjdəçisi olan Su çərşənbəsinin məxsusi ayinləri var...



**Bu gün Novruzun ilk müjdəçisi - Su çərşənbəsidir. Su çərşənbəsi ilə bayrama hazırlıqlar başlayır. İlk çərşənbənin də su çərşənbəsi olması təsadüfi deyil. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Buna el arasında "Əzəl çərşənbə", "Gözəl çərşənbə", "Gül çərşənbə", "Sular Novruzu" da deyilir.**

İnanca görə, su çərşənbəsində bahara doğru çayların buz bağlayan hissəsi əriyib çaylara tökülür və torpaq yavaş-yavaş islanmağa başlayır. Həmin gün sular da təzələnir. Gün doğmazdan öncə kənd yerlərində insanlar bulaq üstünə gedər, əl-üzünü yuyar, bir-birinin üzünə su çiləyər, su üstündən atlanar, evə su gətirərək həmin sudan çay qoyarlar. Deyilənə görə, Su çərşənbəsi günü su üstündən keçənlər azar-bezardan uzaq olarlar. Hətta Su çərşənbəsi günü bulaqların şəfasının artdığı da deyilir. Bəlkə də buna görə ta qədimlərdə insanlar həmin gün su kənarında, bulaq başında, çay qırağında su çağıran, onun gözəlliyini, qüdrətini, müqəddəsliyini tərənnüm edən nəğmələr oxuyardılar.

İlk çərşənbə ərəfəsində hamı ev-eşiyini sahmana salar, evlərin solğun divarları rənglənər, torpaqdan daha yaxşı qidalansınlar deyə, bağ-bağçalarda ağacların, gül kollarının dibi bellənər, artıq budaqları və zoğları kəsib onları cavanlaşdırarlar. Su çərşənbəsi axşamı süfrəyə mütləq bir qabda su qoyulmalıdır və hamı həmin sudan içməlidir. Şirniyyat, quru meyvələr düzülməlidir. Həmin axşam adətən, mərci plov bişirilməlidir. Çünki Su çərşənbəsində süfrənin bəzəyi lobyalı xörəklər sayılır. Su çərşənbəsində stolun üstündəki suyun aşması xeyrə yozulur. Əgər süfrənizdə su aşıb, tökülərsə həmin ilin sizin üçün bol bərəkət gətirəcəyi gözlənilir.

**Bu gün insanlar bir-biri ilə mehriban davranmalı, arzulamalıdırlar ki, növbəti çərşənbələri də şad, xürrəm keçirsinlər. Su çərşənbəsində yaşlıları da unutmazlar. Onlar üçün qovurğadan qovut çəkər, üstünə bəkməz və ya bal tökərlər. Xalqımızın təmtəraqlı şəkildə qeyd etdiyi və yandırdığı ilk tonqal da Su çərşənbəsində yandırılır. Su çərşənbəsində ilk tonqal yandırılması isə buzların açılması, qışın artıq arxada qalmasının göstəricisidir. Çünki kiçik çillə artıq öz yerini boz aya verir və havalar atalarımız demişkən "ağara - bozara" düzəlməyə başlayır.**

Su çərşənbəsi günü hamı həyətində tonqal qalamaqla bayram əhval-ruhiyyəsinin yaxınlaşdığı nəzərə çatdırır. Bu çərşənbədə su üstündə müxtəlif mərasimlər keçirilir, qədim türklərdə su tanrıları sayılan Aban və Yadanın şərəfinə nəğmələr oxunur. Qədim türklərin inancına görə, Tanrı insanı məhz çərşənbə axşamı yaradıb. Əvvəlcə su götürülüb, su ilə torpaq külək tərəfindən qarışdırılıb, insan şəklinə salınıb, Günəşin altında qurudulub, dördüncü çərşənbədə - ilaxır çərşənbəsində isə ona nəfəs verilib. Beləliklə, dünyaya insan gəlib. Hesablamalara görə, bütün bu hadisələr çox müqəddəs bir vaxta, gecə ilə gündüzün bərabərləşdiyi günə təsadüf edib. Bundan sonra isə insan üçün yeni həyat, yeni il başlanıb. Çərşənbələrdə, eləcə də Novruz bayramında həyata keçirilən müxtəlif adətlər də başlanğıcını məhz insanın yaranışı ilə bağlı qədim ayinlərdən götürüb.

Su çərşənbəsi ilə əlaqədar çoxlu sayda inanclar, fallar, türkəçarələr, bayatılar, əfsanələr və rəvayətlər var. Bəzən Su çərşənbəsi zamanı qadınlar, qızlar gedib lal axan su dərələrindən su gətirirlər. İki iynənin arxasına pambıq bağlayıb, suya buraxırlar. Əgər iynələr bir tərəfə getsə, sevgililərin qovuşacağı kimi, əgər ayrı dayansalar, deməli, ümid yozulur kimi yozulur. Bəzi hallarda isə iynə suda batır. Bu isə lal vəziyyət adlandırılır.

Qeyd edək ki, Su çərşənbəsi günü lal axan suyun üzərindən keçmək uğursuzluq nişanı kimi vurğulanır. Həmin gün insanların bir-birinə su atması və yaxud su çiləməsi uğura işarədi.

**Elimizin gözəli, süfrəmizin bəzəyi, dörd çərşənbənin əzəli olan Su çərşənbəniz mübarək!**

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 41 (6069) 24 fevral 2015

# Robot astronavt qayıtdı

"Toyota" şirkəti tərəfindən kosmosa göndərilən ilk robot olan Kirobo Yerə qayıdıb. Təxminən 1 kiloqram ağırlığı, 34 santimetr hündürlüyü olan robot insanlarla əlaqə yarada bilir. Kirobo kosmosdan Yer kürəsinə səslənən ilk robot olaraq tarixə düşüb. 4 avqusta 2013-cü ildə kosmosa göndərilən Kirobo "21 avqustda bir robot parlaq gələcəyə doğru kiçik bir addım atdı" deyə açıqlama vermişdi. CRS-5 Dragon adlı kosmik raket ilə kosmosa gedən robot qayıdarkən Sakit okeana enib. Kirobonun qayıtmasından sonra insanların və android robotların kosmosa gediş-dönüşü haqda məlumat əldə edilməsinin daha asan olacağı məlum olub. Kirobo 18 aylıq işini ən yaxşı şəkildə bitirib.




## Ən çox aldadan ölkə

Son zamanlarda aparılan araşdırmalar nəticəsində dünyada həyat yoldaşını və sevgilisini ən çox aldadan dövlətlərin hansı olduğu məlum olub. Mütəxəssislərin sözlərinə görə, Tayvanda yaşayan cütlüklərin 56%-i bir-birini aldadır. Danimarkada yaşayan cütlüklərdən isə 45-46%-i isə bir-birlərini davamlı olaraq aldadırlar. Almanlar da bir-birlərini aldadanlar sırasındadır. Araşdırmanı gerçəkləşdirən statistika bürosu saytlarda, sosial mediada, araşdırma institutlarında apardıqları sorğular nəticəsində bu məlumatı əldə etdiklərini açıqlayıb. 4 il əvvəl də "Vilke" adlı bir təşkilat danimarkalı hər iki cütlükdən birinin sevgilisinə xəyanət etdiyini açıqlamışdı. 2013-cü ildə isə Danimarka bu sırada birinci yerdə idi.



## Rolu gerçək oldu

Oynayacağı rola görə 1 gün ərzində infarkt keçirmə hissini təkrarlayan aktrisanın rolu gerçək olub. İngiltərədə çəkiləcək olan "C.O.O.L.I.O." adlı filmdə rol alacaq olan qadın Elaine Rhoades adlı qadın film səhnəsini çəkdikdən sonra evinə gedib. 53 yaşlı qadın evində istirahət edərkən infarkt keçirdiyini hiss edib. Təcili tibbi yardım maşını çağıran qadın xəstəxanaya çatdırılıb. Qısa müddət müalicə edildikdən sonra həyata qaytarılan qadının stress altında olduğu üçün infarkt keçirdiyi deyilib.

## 23 rəqəminin sirri nədir?

Belə bir inanc var ki, bütün hadisələrin bu və ya digər yolla, mütləq "23"lə əlaqəsi var. Dünyanın müxtəlif yerlərində müəyyən rəqəmlərlə bağlı inanclar mövcuddur. Onlardan biri də "23" rəqəmidir.Belə bir inanc var ki, bütün hadisələrin bu və ya digər yolla, mütləq "23"lə əlaqəsi var.

-23 rəqəmi sadəcə 1-ə və özünə bölünən bir ədəddir.

-23 rəqəmi iki filmə mövzu olub; birincisi 1998-ci ildə çəkilən alman filmi "23" , digəri isə baş rolunu Cim Kerrinin oynadığı "23 nömrə" adlı filmdir.

- Terrorçular ABŞ-a 11 sentyabr 2001-ci ildə hücum etdilər. Bu hadisənin rəqəmlərini toplayanda 23 sayı ortaya çıxır; 9 +11 +2 +0 +0 +1 = 23.

- Xristianlığın dini kitabı köhnə Ahitdə Adəm ilə Həvvanın 23 qızı olduğu göstərilir.

- Hər valideyn uşağının DNT-nə 23 xromosom ötürür.

- Qanın bütün bədəndə dövr etməsi 23 saniyə davam edir.

- İnsanlarda cinsiyyəti təyin edən 23-cü xromosomdur.

- Latın əlifbasında 23 hərf vardır.

- Yuli Sezar sui-qəsd əsnasında 23 dəfə bıçaqlanıb.

- Məbəd (tapınaq) cəngavərlərinin 23 böyük ustadı vardır.

- Köhnə Misir təqvimləri 23 iyulda başlayır.

- "Beatles" qrupunun ən son yazılan albomunun son mahnısı "Her Majesty" 23 saniyə davam edir.

- Yerin oxu 23,5 dərəcə əyridir.






## Niaqarada tarixi buz

Havanın temperaturun -40 dərəcəyə endiyi Kanadada qismən donan Niaqara şəlaləsində buz qalınlığı 1912-ci ildən bu yana ilk dəfə 3 metrdən çox olub. Kanadada uzun müddətdir davam edən dondurucu soyuqlar Niaqara şəlaləsinin böyük hissəsini dondurub. Dünyanın möcüzələri arasında göstərilən şəlaləni görməyə hər il milyonlarla turist gəlir. 1912-ci ildən bəri ilk dəfə donan Niaqara şəlaləsinin Amerikada tərəfində qalan hissəsi Amerikan şəlaləsi adlanır. Həmin hissə donduğu üçün ətrafdan gözəl görünür. 2 metr qalınlığı olan buzun altından Niaqara çayı hələ də axır. Ontario, Miçiqan, Eyr və Superior və Huron gölləri də qismən donub. Bu güllər sonuncu dəfə 1978-ci ildə donmuşdu. O zaman 94%-i donan göllərin indi 81%-i donub. Havanın bu temperaturu belə davam edərsə, ABŞ-da donma səviyyəsi rekord həddə çatacaq.




QOÇ - Uzaq yola çıxmaq üçün gözəl vaxtdır. Hətta maddi durumunuz aşağı səviyyədə olsa da səfərdən imtina etməyin. Son vaxtlar sizə vəd verib reallaşdıra bilməyənlərə düşmən kimi baxmayın.

BUĞA - Ümumən darıxdırıcı təqvim olsa da, hisslərinizi cilovlamağı bacarmalısınız. Çünki qarşıda sizi böyük işlər gözləyir. Nahardan sonrakı ərəfəni bütünlüklə məhəbbətə həsr edin.

ƏKİZLƏR - Vaxt tapıb bir qədər Axirət haqqında düşünün. Son yolumuz Ora olduğu üçün savablarınızı artırmağa, hamı ilə mehriban davranmağa çalışın. Hakim Allahdır - məhz bunu anlamağa çalışın.

XƏRÇƏNG - Ulduzlar boş-boşuna oturmağınızı məsləhət görmür. Ən azı ona görə ki, bu təqvimin şanslarını görüb aktivliyinizi birə-beş artırmalısınız. Nahardan sonra müqəddəs yerlərə gedin.

ŞİR - Yeni görüş və məsləhətləşmələrdə iştirakınız gözlənilir. Qarşınızı kəsən maneələr yavaş-yavaş səngiməyə başlayacaq. Təcrübəli adamlardan yararlanın. Bəxtinizdə pul da var.

QIZ - Ümumi götürdükdə uğurlu təqvim hesab etmək olar. Əvvəla, əksər bürclərlə müqayisədə büdcə artımı yalnız sizdə gözlənilir. Bundan başqa yeni təkliflər alacağınız da mümkündür.

TƏRƏZİ - Qərarlarınızda qəti və ədalətli olsanız, heç bir xoşagəlməzliyin şahidi olmayacaqsınız. Çalışın ki, bahalı əşyaların, o cümlədən daşınmaz əmlakın alqı-satqısında iştirak etməyəsiniz.

ƏQRƏB - Şəxsi büdcənizdə, eləcə də qarşılıqlı münasibətlər zəminində müsbət dönüş yaratmaq üçün kifayət qədər şanslarınız var. Atacağınız hər bir addımı dönə-dönə ölçüb-biçin.

OXATAN - İşlərinizin çoxluğu fiziki cəhətdən yorğunluğunuza səbəb ola bilər. Lakin nəticənin uğurluluğunu nəzərə alıb usanmayın. Etibar etmədiyiniz adamların məsləhətlərinə əhəmiyyət verməyin.

OĞLAQ - Kifayət qədər düşərli vaxtdır. Göy qübbəsi gün ərzində nəzərdə tutduğunuz planların reallaşmasına təkan verəcək. Sadəcə, şəraitə uyğun addım atmalısınız. Bəxtinizə inanın.

SUTÖKƏN - Təxminən saat 15-ə qədər bütün mühüm işlərinizi təxirə salın. Əks təqdirdə uğursuz cəhdlər silsiləsinə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə maraqlı hadisə və insanlarla rastlaşacaqsınız.

BALIQLAR - Yeni əlaqələr üçün yaxşı vaxtdır. Sadəcə, qarşı tərəfə güzəştə getməyiniz vacibdir. Nahardan sonra fəaliyyət istiqamətində sevindirici olaylar da gözlənilir. Reallığı nəzərə alın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kökəlməni dayandıran cihaz



Yeni hazırlanan Vbloc adlı cihaz səhiyyədə dönüş yaradacaq. Bədənə yerləşdirilən cihaz iştaha siqnallarını dayandırır, bir ildə insanı 20% arıqladır. Amerikanın Səhiyyə Nazirliyinin icazəsi ilə satışa çıxarılmış olan cihaz 3 il əvvəl heyvanlar üzərində yoxlanılıb. Vbloc adlı cihaz arıqlama əməliyyatlarının ən yüngül formada həyata keçirilməsinə kömək edir. EnteroMedics adlı dərman firması tərəfindən hazırlanan cihaz ağciyər, mədə, onuncu sinir olaraq bilinən "vagus" üzərinə yerləşdiriləcək aclıq hissini dayandıracaq. Cihazdan 12 ay istifadə edən xəstələr çəkilərinin ən az 20%-ni itiriblər. Yeni arıqlama cihazı yalnız arıqlatmaqla qalmır, eyni zamanda qan təzyiqi, xolestrol və qan ritmini normallaşdırır.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.250

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.